*İskəndər ETİBAR*

# SÖZÜN SEHRİ

**Bakı - 2010**

## «SÖZÜN SEHRİ» KİTABI HAQQINDA QISA DÜŞÜNCƏLƏRİM

İskəndər Etibar yaradıcılığını «Tək səbir» qəzeti diqqətimi cəlb eləyən illərdən izləyirəm. Əvvəllər onu satirik şair kimi, sonralar həm də lirik şeirimizin layiqli nümayəndəsi kimi görə bildim. Nəticədə, mən də bu yaradıcılığa kökləndim. Mütaliə təfəkkürün, onun güzgüsü olan ilhamın əks-sədasıdır. İskəndər Etibar da kimlərin kitabı ilə qidalansa da, yaradıcılığında özüdür və hamı kimi poeziya zirvəsinə can atır. Çalışır ki, hər şeir, hər misra siqlətli olsun. Sözə qarşı çox diqqətli və məsuliyyətlidir. Kitabın adı da elə bu məsuliyyətdən qidalanır. Söz narahatlığı uzaq və yaxın illərdə bütün yaradıcıları narahat etmişdir. Hərə sözü özünəməxsus forma və fəlsəfi tutumda tərənnüm etmişdir. Bu mövzuda sədaqət və Məcnun eşqi ilə «Mən sözün Məcnunuyam» deyən İ.Etibar söz haqda indiyə kimi deyilməyən tərzdə, obrazlı ifadələr, bənzətmələrlə sözün canlılığını, sehrini, onun hətta Allaha bərabər qüdrətdə olduğunu diqqətə çatdırmaq istəyir.

Söz haqda bir kitab şeirlə ilk dəfədir üzləşirik. Bu şeirlər bir oxucu kimi məndə də bir daha sözə məsuliyyət hissləri aşıladı. Əminəm ki, bu şeirlər hər bir oxucunu bu hisslərlə çulğayacaqdır. Çünki sözü tərənnüm edən hər şeir siqləti, orijinallığı və təkrarsızlığı ilə fərqlənir. İlkin tanışlıq kimi kitabdakı bir neçə şeirdən nümunələri diqqətə çatdırmaq istəyirəm:

***Söz Yerdə Ay kimidi:***
***Görünməyən üzü var.***

*Söz də dünya kimidi,*
*Dərəsi var, düzü var.*

*Həm söz oddu, həm də su,*
*Yandırır, söndürür də.*
*Söz Günəşdi - Allahdı:*
*Dirildir, öldürür də.*

**«Söz də dünya kimidir»**

Kitabda 4-6 sətirdə böyük fikir ifadə edən xeyli şeirlər var:

*Sözü səpdim Yerdə şuma,*
*Sünbüllədi buta-buta.*
*Allaha da yetmək olar*
*Söz əlindən tuta-tuta.*

*Zaman dönüb, insan dönüb?*
*Sözün şiri, pələngi az.*
*Quyruqlanan tulası çox.*
*Sözü atdım, tutanı yox!*
*Yetim qalan doğru sözün*
*- Balam! - deyən Avropası,*
*Tumar çəkən Turanı yox.*

*Sinəmdə yatmışdı, ha yalvarırdım,*
*Qələmə gəlmirdi, çəkinirdi söz.*
*Nə vaxt ki, ilhamla mayalanırdı,*
*Yağdakı tük kimi çəkilirdi söz.*

*Söz,*
*Qobustan qayalarında,*
*İnsan qıyyalarında*
*hələ də hay-haraysan.*
*Qapısı, pəncərəsi*
*Açılmayan saraysan.*

**«Bir söz dedim»**

*Tanrı İskəndəri qurban yaradıb söz, sənət üçün,*
*Sözü sözlə yoğura, sirr aça, aslan ola könlüm.*

**«Könlüm»**

Şairin «Sözlər» silsiləsindən olan şeirləri orijinallığı və sanbalı ilə diqqəti cəlb edir. Gərək oxucu bu şeirləri oxusun və bilsin ki, mən düz deyirəm.

Əvvəlki məqalələrimin birində «Gecikən kitab»dakı «Söz» şeirini M.Füzulinin «Söz» rədifli şeiri ilə müqayisə etmişdim. Bu gün «Sözün sehri» kitabındakı bir çox şeirləri Xaqaninin, Nizaminin, Nəsiminin və başqa klassiklərimizin sözə münasibəti ilə üz-üzə qoyardım. Ola bilsin ki, bu fikrim bəzi xəbisləri qıcıqlandırdı. Axı niyə? Nə vaxta qədər öz övladlarımıza laqeyd olmalıyıq? Nə vaxta qədər böyüklüyü başqa xalqların, o cümlədən avropalının övladlarında görəcəyik? Öz övladlarımıza ilkin qiyməti özümüz versək dünya dağılar? Nə üçün şəxsiyyətlərimizi əvvəlcə yadlar görməlidir, sonra biz? Təəssüf ki, ömrünün 74-cü baharına qədəm qoyan, həm satira, həm lirika sahəsində bir çox uğurları imzalayan İ.Etibar yaradıcılığı təqdir olunmayıb. Buna ehtiyac var. Hər şeydən qabaq o, «Tək sə-

bir»lə Azərbaycan tarixinin 1992-2001-ci qalmaqallı, hərc-mərclik illərinə cəsarət və qeyrətlə, daxilində çağlayan xalq, Vətən məhəbbəti ilə güzgü tuta bilmişdir.

İ.Etibar yaradıcılığına az-çox bələd olan bir şəxs kimi bildirirəm ki, «Sözün sehri» kitabı ədəbiyyatımızda hadisədir. Ürəyəyatımlı dilinə, ilhamlılığına, təfəkkürünə, yeniliyinə, obrazlılığına və həyatiliyinə görə əminəm ki, bu kitab ədalətli qiymətini alacaqdır. Poeziyaya məhəbbət bir çox tədqiqatçılarımızı dilləndirəcək və bu kitabdakı şeirlər barədə, yəni söz haqda söz söyləyəcəklər. Bu kitabın geniş oxucu kütləsinin də diqqətini cəlb edəcəyinə əminəm. Bu, sadəcə olaraq, həmən şeirlərin rus, ingilis və s. dillərə uğurlu tərcüməsindən asılıdır.

**Şakir Albalıyev**
**filologiya elmləri namizədi**

## SÖZün poetikası - poetikanın SÖZü

***V.Q.Belinski yazır ki, məzmunla dolu olan şeir həmişə inkişaf edir, irəli gedir, hər cür məzmundan məhrum olan şeir isə həmişə bir yerdə durur, eyni havanı eyni səslə oxuyur. İlk əvvəl o, şöhrət qazana bilər, amma onu öyrəndikdən sonra daha oxumurlar...***

Əlbəttə, məzmunla dolu şeir (nəsr yazıları) ədəbiyyatın təməl daşıdır. Görkəmli şair İsgəndər Etibarın "Sözün sehri" kitabında toplanan şeirlər bu baxımdan diqqət çəkir.

Böyük mütəfəkkir şairlərimizin SÖZ haqqında nəzərləri müxtəlifdir. İ.Höte bu barədə çox gözəl deyib:

***"Bir deyil aləmə nəzərlərimiz,***
***Hər adam haqlıdır öz baxışında".***

Bu prizmadan yanaşsaq, İsgəndər Etibar da "Sözün sehri" kitabı ilə SÖZə keçiddə haqlıdır.

"Sözün sehri" kitabında mənfi ünsürlərə qarşı mübarizə ruhu geniş yer tutur. Bəlkə buna görə şair kitab boyu rekonstruktiv meyarlı həyati səciyyəni şəxsiyyət fonunda səciyyələndirir. Məhz bu baxımdan, kitabda konstruktiv həyat ampulası insan zehniyyətinin əsas məğzi kimi təqdim edilir.

Sözün fərdi və ictimai (əslində, bəşəri) xüsusiyyətləri İ.Etibar üçün ənənəvidir. Elə, "Sözün sehri" kitabında da müəllifin ruhu sönük deyil və burada fikirdən fikrə təkrar keçid yoxdur. Bu da ona dəlalət edir ki, istedadlı şair SÖZ-lə bağlı bədii fikrə yeni çalar verməklə dünyadakı hadisə-

lərin iç qatında struktur və sistem təcrübəsindən yararlanır, poetik mahiyyət və özəlliyi xüsusi analizə istiqamətləndirir.

"Sözün sehri" kitabı İ.Etibarın SÖZ haqqında müvafiq nəzəri biliyə malik olması faktını ortaya qoyur. Məhz bu bilik onun SÖZlə əlaqəsini təmin edir, qabiliyyətinin gerçək hissi-emosional parametrlərdə təzahürünə zəmin yaradır.

Bizə elə gəlir ki, metafiziki (ruhani) qatda kainat öz izharını məhz SÖZdə tapır. Elə İsgəndər müəllimin oxuculara töhfə kimi bəxş etdiyi kitabda da açmaq istədiyi məzmun budur.

SÖZ də bədii dərketmə (belə deyək, poeziya) kimi bir anlayışdır. Onun həyati səlisliyi zövqlərin təşəkkülü üçün bir stimuldur. Biz bu stimulu kitabın vahid süjet xətti kimi qəbul edə bilərik. Bu xətt üzərində SÖZün bir həyati meyar kimi fiziki çalarlarını, bəşəri tamlığını şərtləndirən xüsusiyyətlər aşkar-izhar olur. Bu xüsusiyyətlər SÖZlə ritmin dimetrik proyeksiyasını, struktur-sistematik yönünü iri planda (panoramda) oxucuya açıb göstərir.

SÖZün İlahi bir duyğu (hiss) olaraq fizioloji təsiri, əzəməti və qüdrəti Yerlə Göy arasında semantik-həyati əlaqə yaratmaq, bu əlaqədə zahiri və batini məna axtarmaq məqsədinə dəlalət edir. İ.Etibarın kitab boyu xarakterizə etdiyi əsas məsələlərdən biri budur. İstedadlı şair SÖZə aid şeirlərində hissi mahiyyəti zəruri şərt kimi səciyyələndirir.

SÖZ ədəbiyyatın əsas silahıdır. "Sözün sehri" kitabının da elə əsas materialı məhz SÖZdür. Müəllif bu kitabda SÖZün ümumi ifadə formasından çıxışını təmin edir, şeirlərinin bədii səviyyəsini, təsir qüvvəsini bir az da artırır, ümumiyyətlə, SÖZün ədəbi prosesdəki mövqeyini, xalqın mədəni inkişafında rolunu və yerini müəyyənləşdirir. Diqqət yetirək:

***- Bir söz nə qədər kiçikdi?***
***- Söz kiçik olmur,***
***Onu kiçiklər kiçiltdi...***

* * *

***...Söz də səma kimidi,***
***Məlum, məchul bürcü var.***

Göründüyü kimi, SÖZlə bağlı bu və digər misralarda şair öz daxili imkanlarından yetərincə istifadə etməklə poetik-fəlsəfi siqlət yaradır, SÖZü quru bir fakt kimi deyil, cilalanmış şəkildə oxucu ilə qabaq-qənşər qoyur.

Şübhəsiz, böyük sənətkardan SÖZlə bağlı çoxlu nümunələr gətirmək olar. Yuxarıdakı nümunələrdə biz şairin SÖZə orijinal, elmi-fəlsəfi, həyati münasibət bəslədiyini aşkar-izhar edirik. Yəni, özünəməxsus bədii-estetik, etik baxışları ilə diqqət çəkən istedadlı şair İsgəndər Etibarın SÖZə münasibəti Həqiqi Mütləqə (Yaradana) etiqad kimi təsir bağışlayır:

***Sözə sığar kainat,***
***Söz sığmaz kainata...***

* * *

***Söz...***
***Qapısı, pəncərəsi***
***açılmayan saray...***

* * *

***Mən sözün içindəyəm,***
***Orbitimdən çıxıram,***
***Sözdən çıxa bilmirəm...***

Kitabı diqqətlə oxuduqdan sonra bir qənaətə gəlirik ki, şairin əksər şeirlərindəki fəlsəfi fikirlər, bədi, siqlət onun istəyindən yox, ruhundan, bədii təfəkküründən süzülüb gəlir. Diqqət çəkən məqam odur ki, onun şeirlərində fikir (bir çox şairlərdə olduğu kimi) təkcə axırıncı misralarda deyil, bütün şeir boyu özünü göstərir.

SÖZün qüdrətinə sığınan İ.Etibar XXI əsrin başlanğıcında həm satirada, həm də lirikada sözün fikir yükünü, bədii sanbalını diqqət mərkəzində saxlayan şairdir. O, bədii sözü - sağlam təfəkkür və ürək odu ilə mayalanan şeiri sənət əsəri hesab edir və özü məhz belə sənət nümunələri yaradır. Elə buna görə onun şeirləri oxucuya zövq verməklə yanaşı, həm də onun təfəkkürünü genişləndirir (əminik ki, bu kitabda oxuculara təqdim olunan şeirlər bu deyilənləri bir daha təsdiqləyəcək).

İ.Etibarın ədəbi mövqeyi, ilk növbədə, onun dili və SÖZə olan məhəbbəti ilə şərtlənir. Əsas odur ki, İ.Etibar "Sözün sehri" kitabı ilə böyük SÖZə heykəl yonub, SÖZlə bağlı təsnifi məsələlərə aydınlıq gətirib, SÖZün xarakterini açıb, təfərrüatlarını doğru-dürüst göstərib. Bu səbəbdən, kitabın (bütün cəhətləri ilə) oxucuda estetik təəssürat oyadacağına inanırıq.

Sonda oxucularımızın diqqətinə çatdırmaq istəyirik ki, bu az səhifəli (lakin böyük tutumlu) kitab haqqında on bu həcmdə şərh yazmaq olardı. Təəssüf ki, yer azlığını nəzərə alıb bu həcmdə yazı ilə kifayətlənmişik.

**Hikmət MƏLİKZADƏ**

# BİR SÖZ

## I

- Bir söz haradan hara kimi gedə bilər?
- İstəsən,
Ən uzaq planeti də fəth edə bilər!
- Bir sözün uzunluğu
Neçə min, milyon metrdi?
- İlk insan yapışıb bir ucundan
Bu günəcən gətirdi.
Ölçə bilənlər ölçsün.
- Bir söz nə qədər böyükdü?
- Göyün eni, uzunu qədər!
- Bir söz nə qədər kiçikdi?
- Söz kiçik olmur,
Onu kiçiklər kiçiltdi!
- Bir sözün çəkisi neçə
                    milyon ton olar?
- Bütün planetləri bir gözə,
Bir sözü bir gözə qoysan,
Planetlər göydə qalar!

**8.11.08**

## II

Söz,
Haradan hara gəlmisən?
Yer gülüb, insan gülüb,

Nə vaxt ki, sən gülmüsən.
Söz, canlısan, duyuram,
Yolunda can qoyuram,
Beşiyin ürəyimdi.
İlk insandan gəlirsən,
Yat, dincəl, yorulmusan.
Mənim sürət qatarım,
Apar məni uzağa -
Biz ikili bucağa.
At, at məni
Sevgi dolu qucağa.
Qovuşdur Allahıma,
Son qoy ürək ahıma.
Söz, alışdır, qovuşdur,
Ən uca zirvələrə,
Söz acı, söz təşnəsi
Zümrələrə.
Qatma, suyu bulanıq,
Nadan dilindən axan
Cümlələrə.

**11.07.09.**

## SÖZ DƏ DÜNYA KİMİDİ

Söz yerdə Ay kimidi;
Görünməyən üzü var.
Söz də dünya kimidi;
Dərəsi var, düzü var.

Söz də atom kimidi;
Tikən, sökən gücü var,
Söz də səma kimidi;
Məlum, məchul bürcü var.

Sözlər də su kimidi;
Şairlərdi cuvarı;
Baxır, necə yönəldir
O, sözləri-suları.

Fikir bağı, bostanı
Sözlə bitir, cücərir;
Baxır, bağban, bostançı
Nə əkir, nə becərir.

Söz həm oddu, həm də su,
Yandırır, söndürür də.
Söz Günəşdi - Allahdı,
Dirildir, öldürür də.

## İKİ SÖZ

Yersiz sözdən
Bağrım başı söküldü,
Yer yarıldı, yerə girdim,
Axşam, səhər budağımdan
Dəymiş qaldı, kal töküldü.
Səda gəldi üfüqlərdən
Ölmə, yaşa, ey igidim.

Şirin sözdən
İşıqlandım səhər kimi,
Baharladım gül kimi,
Aşıb-daşdım Kür kimi.
Dedim: - Təzə doğulmuşam,
Ömrün səhərindəyəm!..

**1**
Sözü səpdim Yerdə şuma,
Sünbüllədi buta-buta.
Allaha da yetmək olar
Söz əlindən tuta-tuta.

**2**
Can verirdi qara torpaq,
Söz içirtdim hala gəldi.
Dilə tutdum nar bağını,
Budağında kalı dəydi.

**3**
Tanrı sözə and içir
Sözmü, Allah əzəldi?
Söz Allahı, bilmirəm,
Allah sözü gözlədi?

**4**
Söz anamdır, atamdır,
Sözlə uşaqlaşıram.
Nə vaxt tənha qalıram,
Sözlə qucaqlaşıram.

**5**
Atam hərdən deyərdi:
- Dinlə, sözün canı var.
Yaralasan, görərsən
Dildə sözün qanı var.

**6**
Söz diksinir, zəlzələsi
Şəhər məni viran qoyur.
Nəsimini küt bıçaqla,
Nadan məni sözlə soyur.

**7**
Mən yeriyən tonqalam,
Söz tökülən közümdü.
Sönürəm axşam, səhər
Alışqanım sözümdü.

**8**
Söz deyərəm, Sibirdə
Buz əriyib qaynayar.
«Söz havası» çalaram.
Nəhəng dağlar oynayar.

**9**
Dilinin altındasan,
Danış, deyim sən kimsən.
Odunsan, söz yandırıb,
Nadan, sözün külüsən.

**10**
Ürəyimdə sevdalaşan
Sözlə sözün mehrini gör.
Xaqanini, Nəsimini
Dinlə, sözün sehrini gör.

**12**
Düz söz yesə arpa unu,
Çörəyi yağ, bal dadacaq.
Yalan yesə buğda unu,
Fətir bişir, yal dadacaq.

**13**
Bu gün də sinəmdə süfrə açıb söz,
Yeyir ürəyimi doğulsun deyə.
Əmir gözlərimin işıq kökünü,
Nurunda qaranlıq boğulsun deyə.

**14**
Hər sözə, misraya nar sıxan kimi
Sıxıb ürəyimin odunu, verdim.
Ağzımda qaynadıb sözün çiyini,
Hər sözə dilimin dadını verdim.

**15**
Bir doğru söz desəm, diksinər, ürkər,
Başdakı başlarda ildırım oynar.
Min şirin söz desəm, - Yaltaq! - deyərlər,
Yuxarı məst olar, aşağı qaynar.

**16**
Qoymur enə, oxdan çıxa,
Bu dünyanın təməli, söz.
Sözü bişir, sonra danış,
Bəlkə deyil deməli, söz.

**17**
Bişirmişəm sözü dildə,
Söz ağzımda şəkərimdi.
Mən şairəm yaman sözü
Yaxşı demək şakərimdi.

**18**
Bağda gül ah edəndə,
Dilim günah edəndə,
Mən, məni sözdən asdım
Yar inciyib gedəndə.

**19**
Ürəyim söz təndiridi,
Sözlər bişir ürəyimdə.
Fikirlərin muncuğunu
Sözlər deşir ürəyimdə.

**20**
Sözü çəkib canımdan,
Verdim sənət mülkünə.
Ürəyi xəbislərin
Birə düşdü kürkünə.

**21**
Sözün ağı, qarası var,
Sözsüz Yerin harası var?
Harda yoxsa sözün səsi,
Orda Yerin yarası var!

**22**
Buludların şimşəyi - söz,
Ürəyimin şişməyi - söz.
Üfüqləri imzalayan
İldırımın düşməyi - söz.

**23**
Gül, çiçəkdi dilimdə söz,
Kim qoxuyub indiyəcən?
Söz iplikdi, söz xalısı
Kim toxuyub indiyəcən?

**24**
Yazdım sözü tarix üçün,
Yox, yazmadım arxiv üçün.
Canında qut olsun deyə,
- Şərbət! - deyib tarix içsin.

**25**
Zaman dönüb, insan dönüb?
Sözün şiri, pələngi az,
Quyruqlanan tulası çox.
Sözü atdım, tutanı yox!

Yetim qalan doğru sözün
- Balam! - deyən Avropası,
Tumar çəkən Turanı yox!

**26**
Xəlbirləyib, ələyib də söz məni,
Nəyim qalıb mən yaşayım hələ də?
Dedim: - Qaçım! Söz qoymadı,
dayandım,
Əriyirəm söz adlı bir kürədə.

**27**
Gözəllik bürüyüb Yer kürəsini,
Süfrədə görünən hələ heçnədi.
Nəsimi, Füzuli ha süfrələdi,
Qələm dedi: - Nə yazmısan? Bu nədi?

**28**
Söz mənim ömrümün qan bahasıdır,
Mənim nə dərdim var, söz bəlasıdır.
- Sevirəm! - Demişəm, oğulum, qızım
Əslində, mənim yox, söz balasıdır!

**29**
## NADANA CAVAB

Bu sözü o sözə calaq etmisən,
Söz də var, sındırıb çolaq etmisən.

İlhamsız şeirini çıraq etmisən,
Söndün! Sızlamağın nə mənası var?
Külün də od olmaq təmənnası var?

**30**
Qurğuşun siqləti var
Sözümün siqlətində,
Yetən götürə bilməz.
Sözün qoluna girib
Evə gətirə bilməz.

**31**
Sözdən gəldim, sözlə güldüm həmişə;
Vüqarlandım, alqışlandım həyatda.
Leysanladım, yağışlandım həmişə,
Yer tutmadı, sığışmadım həyata!

**32**
Mən sözün hökmündə yaşaya bildim,
Söz mənim hökmümdə yaşaya bilməz.
Yığılsa əsrimin gücü, qüdrəti,
Bir sözün yükünü daşıya bilməz.

**33**
Söz deyib boşalır, yoxsa insanın
Barıt çəlləyitək partlayar, Allah!
Sözdü ovundurur, sözün olmasa,
Ana balasını tapdayar, Allah!

**34**

İlhamım tükənib, sözüm çağlamır,
Damarım quruyub susuz arx kimi.
İtirdim o qızı - məhəbbətimi,
Söz çıxır sinəmdən odlu ah kimi.

**35**

Yerdə alınmaz qala-
Sözümə sığınmışam.
Nəvəm gəlib, ay ellər,
Həkimsiz sağalmışam.

**36**

- Üstündəki o toz nədir?
- Gedən vaxtın izləridir!
- Üzündəki gülüş nədir?
- Gələn vaxtın sözləridir!

**37**

Qurbanlığam, sanmayın
Hər gözün qurbanıyam.
Saf ürəyin, ilqarın,
Saf sözün qurbanıyam.

**38**

Söz atılan güllədi,
Dəydi, sinəm güllədi.
Göyüm-göyüm göynədim,
Söz üzümə gülmədi.

**39**
Sözü demə küləkdə,
Ümid gəzmə kələkdə.
Bil, bərəkət, qut olmaz
Tər olmasa çörəkdə.

**40**
Söz kimyadır, eşitsə
Şeytan dönər, çevrilər,
Mələk kimi sevilər.
Bəndəsini şad görən
Allah göydə sevinər.

**41**
Söz yağışı gül bitirər,
Söz selində axar dağlar.
Söz buludu şimşəkləsə,
Göy tutumu qəm dağılar.

**42**
Dilim atır Yerdən göyə,
Ulduzlara söz dəyirdi.
Qızlar göyə baxırdılar,
Ulduzlara göz dəyirdi.

**43**
Söz də girir söz cənginə,
Söz bulanır söz qanına.
Ürək seçir, seçmələyir,
Alır sözü söz qoynuna.

**44**
Qələm sözü necə yığdı,
Kağızlara necə yağdı?
Niyə payız yağışı tək,
Ürək sözü gecə yağdı?

**45**
Nə güc, hünər, söz qaldıırıb,
Misirdəki dağ daşları:
Piramida söz sehirdi,
Dara çəkir baxışları.

**46**
Külək qurdmu? Ulayır.
Yellər quyruq bulayır.
Yarpaq-yarpaq qızılı
Payız yerə tullayır.

**47**
Ürəyim çox qorxur sözün gücündən,
Elə ki eşidir addım səsini,
Az qalır ürəyim gedə özündən.

**48**
Sözün generalı ilham əmr edir,
Sözlər qoşun-qoşun gəlir üstümə.
Bir sözün hökmünə dözə bilmirəm,
Sözlərin qoşunu durub qəsdimə.

**49**
Şeir oxuyun, -
Al qızılgül rayihəli...
Söz qoxuyun,
Ürəyiniz qanadlansın,
Ümidiniz inadlansın.

**50**
Söz məndə yaşayır məndən xəbərsiz.
Ömrümə-günümə təməl daşıdı.
Göz açıb-yumunca qanad açdı söz,
Ölkədən-ölkəyə məni daşıdı.

**51**
Söz mənim ömrümdə yanan çıraqdı,
Məndən sabahlara gedən soraqdı.
Ürəyim - sözistan varaq-varaqdır.
Xəbisə tuşlanan güllə sözlərim,
Yanan ürəyimdə daraq-daraqdı.

**52**
Sinəmdə yatmışdı, ha yalvarırdım,
Qələmə gəlmirdi, çəkinirdi söz.
Nə vaxt ki, ilhamla mayalanırdı,
Yağdakı tük kimi çəkilirdi söz.

**53**
Başlar ayaqların hökmündə durub.
Ayaqlar top qovur, baş olmaq hədər.

Xəcalət çəkirəm sözüm, önündə
Sevdirə bilmədim səni top qədər.

**54**

Allah-Ol! Deməklə oldu kainat,
Sözdəki qüdrətə, hünərə bax sən!
Sözün vüsalına yetmək istəsən,
Hər sözün önündə ayağa qalx sən.

**55**

Sıyırdım sözümü ürək qınından,
Kimsə şilküt olub yıxılacaqdır.
Kimlərsə bir təhər can qurtaracaq,
Ağır yaralılar yox olacaqdır.

**56**

Çim sözümdə, təmizlən
Söz ki, dərya kimidir.
Söz eşqində yananlar
Bəlkə xülya kimidir?

**57**

Mən Günəşin oduyam,
Dildə sözün dadıyam.
Əyilmərəm, sınmaram,
Söz dağın Fərhadıyam.

**58**
Asta dedim,
Usta dedim sözümü.
Çox sevildim, ucaldım,
Mən öymədim özümü.

**59**
Mən kiməm, ver hökmünü,
İxtiyar səndədir, söz.
Sən Allahsan, önündə,
İskəndər bəndədir, söz.

## SÖZ MƏKKƏSİ

**Söz**
**Məkkədir, Mədinədir,**
**Ziyarət et, təmizlən.**
**Yer boyu, bəşər boyu**
**İsa, Musa, Məhəmməd,**
**Əli kimi əzizlən.**

Sözün qılıncına baş qoydum,
Kəsmədi.
Dedi: - bu qədər söz pöhrələyən
Başına necə qıyım?
Yaxşısı budur,
Baş qoyduğun kötüyə
Mən baş qoyum.
Nəsimi kimi tanınsın

söz soyum.
Xaqanili, Nəsimili ölkədə
Kimsə sözdən sıyrılıb
Sözə heykəl də qoysun.
Necə?
Nədir sözün forması,
Boyu, eni, hündürlüyü?

**14.07.09.**

## GƏL

Gəl qaldıraq şeirin,
 sözün bayrağını,
Mən qaldırsam,
 bir bayraq qalxacaq.
Sən, mən, bir də onlar qaldırsalar,
Minlərlə bayraq ucalacaq.
Yadlar baxıb qorxacaq.
Sən, mən, o, onlar
 hara getsələr,
Özgələr ayağa qalxacaq.
Xəbislikdən əl götür,
Sən də cüt səbir gətir.
Böyüyək,
Böyüsün elimiz, obamız.
Həmişə sözlü olsun
Yurdumuz, yuvamız.
Xəbisliyə

yem etdiyin vaxtını
Ver sənətə,
Səsin gəlsin sənətdən,
Yolun keçsin cənnətdən.

**6. 07. 09.**

## ŞAİR MƏHƏBBƏTİ

Şığısa üstünə yayın Günəşi,
Sığın kölgəsinə gülüm, sözümün.
Dəmir polad olur suya çəkilsə,
Sözümlə qayna ki, arta dözümün.

Sözümün şahidi sevgi, məhəbbət,
Sevgi hökmündədir hər söz, hər hikmət.
Sevgi fərman yazır, ya qərar verir,
Yeri söz fırladır, sözdədi fitrət!

Səndən də bəxtiyar bir gözəl varmı,
Allahın sevdiyi, ürəkdən gülən.
Yerin şair oğlu söz verib sənə
Saxla, əmanətdi, olmasın bilən.

Öyün, fəxr elə ki, məndən od alan
Günəş hərarətli söz var canında.
Tay bilmə hər sözə, qürurla gəz ki,
Şair məhəbbəti axır qanında.

**6.07.09.**

# SÖZÜN PREZİDENTİYƏM

Ulu Tanrı,
Qovma qapından məni.
Ağ atlı xilaskaram,
Salma atından məni.
Şairəm, göylərdəyəm,
Görüşmədik, itirmə
Göyün qatından məni.

Şairəm, sabit deyil
Nə əhvalım, nə halım.
Bəzən dil zəhər tökür,
Qalır ağzımda balım.

Mən şairəm qururam,
Sözlə tikib - qururam.
Tarixin hər anında
Sual kimi dururam.

Mənim səbrim daşandı,
Yalan görüb daşlandı.
Nadan görüb dilləndi:
- Bunun səbri daşdandı?

Söz kimi əbədiyəm,
Qələm kimi lüm-lütəm.
Eşitsin, bilsin aləm,
Mən hamıdan dərdliyəm.

Bu xaraba dünyada
Mən quyruqlu deyiləm,
Hər yetənə əyiləm.
Ötən yeldi, küləkdi,
Kimlər ölkə, mən yazıq
Sözün prezidentiyəm.

**Yanvar 2009.**

## XAQANİ VƏ HÖKMDAR

Hökmdar, hökm etmə gəl,
Mənə hökmün hədərdi.
Topun, sözün, topxanan
Ölümünə qədərdi,
Anlamırsan bu dərdi.
Sən kədərin, qəmlərin,
Mən sözün hökmündəyəm.

Sən ha hayqır, ha qışqır,
Quyruqların bulansın,
Daş oyadan gözəllər
Ha başına dolansın.
Hərdən məni görəndə,
Ha ürəyin bulansın,
Sən taleyin, sən bəxtin,
Mən sözün hökmündəyəm.

Səni seçib bəndələr,
Əyrini hey rəndələr,

Gözlərində bənd edər.
Sən kürsünün, bəndənin,
Mən sözün hökmündəyəm.

Adam ol, qarğalanma,
Meydanda darğalanma.
Sən yelin, fırtınanın,
Mən sözün hökmündəyəm.

**Yanvar 2010.**

## GECƏ SAAT BİRDİ

Gecə saat birdi:
Allahım,
axşamı indicə başlayan gecə,
Yarıyacan nə tez əridi?!
İndicə ayrılmışam
        mənalar ayrıcından -
Xaqani ilə söhbətdən.
İndicə yıxılmışam
        heyrətin zirvəsindən.
Xaqanini, Sabiri
Dəli bilən, yad sayan
Kütlə adlı
Kütlərin zümrəsindən.

Gecə saat birdi: -
Gecənin ortasındayam.

Arxadan gündüz qovur,
Önümdə gecə qaçır.
Gecə saat birdi,
Məndən ötrü birdi
Gedən gecə də,
Gələn gündüz də; -
İlhama
Bir yeni söz zirvəsi
      aldırmalıyam,
Şeirimizin bayrağını
Hər gün
bir az da qaldırmalıyam.

**6.08.09**

## BİR SÖZ DEDİM

Söz,
Qobustan qayalarında,
İnsan qıyyalarında
Hələ də hay-haraysan.
Qapısı, pəncərəsi
Açılmayan saraysan.
Daşlar duyar,
Daşürək duymaz səni.
Bir söz dedim yarıldı
Göy üzünün qübbəsi.
Söz üfürdüm, dağıldı
Sübhün dumanı, çəni,

Ürəklərin şübhəsi.
Söz gurladım, qayalar,
Dağlar içini sökdü,
Sözlərimi selləyib
Dərin dərəyə tökdü.
Dalğalandı sözlərim,
Diksindi palıd, çinar.
Ürkək sərçələr kimi.
Uçdu yaşıl yarpaqlar.
Şeir dedim çəməndə,
Söz oxşadı gülləri.
Sözümün dalğaları
Naxışladı dilləri.

**24. 07.09**

## SÖZ VAR

İçimdə söz dalğalanır,
Dalğalanır, ləpələnir.
Daş sinəmi döyə-döyə
Çiliklənir, qəlpələnir.

Bir, iki, üç, beş, onbeş!
Sinəm dözmür, yarılır,
Kağıza söz dağılır.
Kağızlar yağır dilə,
Dodaqlar kəlmələyir,
Hər yana səpələyir.

Söz var, eldən yapışır,
Söz var, Yerdən yapışır,
Gedir əbədiyyətə.

**12.04.09.**

## DÜNYA BİR AZ DÜZƏLƏR

Günəş dənizdən su,
Ağlım eldən, obadan
 söz buludlayır.
Ağlımın söz buludu
Dəniz-dəniz ürəyə,
Səhra-səhra fikirə
Söz yağır misra-misra.
Fikirdə od cücərir,
Ürək arzu becərir.
Kölgədən qorxan, ürkən
Qaçır qısıla-qısıla.
Ömrünün yumağından
Qaçır açıla açıla.

Qorxma, qorxma, İskəndər,
Taraz tuşla hədəfi.
Güllə deşə bilməz, bax,
Sözün deşər sədəfi
Dünya bir az düzələr...
Hərdən yaman qorxuram,
Əyri qalar, düz ölər.

**06.03.09.**

* * *

Təmizəm, istəyirəm dərdlərə dərman ola könlüm,
Ey fələk, qıyma mənə, nadana qurban ola könlüm,

Bəşərə, yurda, elə bağlı olan bir nəfərəm mən,
Yaranıb ki, yarada, faydalı insan ola könlüm.

Bu xəbislər ki məni bir belə dildən-dilə salmış,
Tanrı qıymaz bulanam, piylənə nöqsan ola könlüm.

Şairəm, yurda gərəkdir sinəmin eşqi, odu,
Qayğı göstər, yaradım yurduma ad-san ola könlüm.

Yox aram pislik ilə, yaxşılığa meyl edirəm mən,
Vermə nadan əlinə, qıyma ki, talan ola könlüm.

Dəyişir halımı hər gün neçə yol vecsiz adamlar
İstəmirlər həmişə bəy ola, sultan olan könlüm.

Tanrı İskəndəri qurban yaradıb söz, sənət üçün,
Sözü sözlə yoğura, sirr aça, aslan ola könlüm.

**28.02.09**

* * *

Şeirim hünərimdi.
Bax, necə yükləmişəm
tələsən günlərimi.
Günlərim çox ləngiyib
        yükün ağırlığından.
Başı qarışıb deyə,
sözümə-söhbətimə,

- Mən! Mən! - deyə bilməyib
fağırlığımdan.

* * *

Bir oymaq beyni
Şumlanıb, tumlanmayıb.
Kimini döyüb,
Kimini söyüb,
Ayaqlayıb
keçib qabağa.
O, hay-küydə bənzəyir
Boş və dəmir tabağa.
Ümidi yoxdu
Bu gündən sabaha.
Belələri olmasa,
Nə var ki, yaşamağa.

**6.07.09.**

Söz, zirvəsinə qaçıram,
Sıldırımlı dağlarda
Özümə yol açıram.
Mən günəşlə yox, səninlə
Ürəyə nur saçıram.

**9.08.09.**

Hər şey ötəridir, qalan sənətdir,
Yaz, yarat İskəndər, sənət son həddir.
Həyat cəhənnəmdir, sənət cənnətdir.

* * *

Əl qoyun şeirimə, nəbzini tutun,
Bir görün ürəyim necə döyünür.
Ürəyimdə sətirlənən şeirlər
Yorğun fəhlə kimi hirslə deyinir,
Yoxsa ki, işindən çox razı qalan,
sevinən fəhlədi, gülür, öyünür?!
Gülürsə, çox yaxşıdır.
Bu şeirim də
Şeirimizin naxışıdır.

**30.05.09.**

*Ömür yoluma «Tək səbir» çıxmasaydı,*
*sözlərin fəlsəfi mənasını açan «Sözlər»*
*silsiləsindən şeirlər yazacaqdım...*

## QIRMIZI

\- Qırmızı - dedim;
Qapqara qaranlıq gecənin
Sinəsində ürək yandı, - qırmızı.
Qırmızı çiçək açdı səhər -
Günəş adında.
Qırmızı təndir qalandı
Üfüqlərin ardında.
Qıpqırmızı, salxım-salxım
Yarpaqladı ağaclar...

Qırmızı!..
Bu sözü yudum-sərdim,
İtirmədi rəngini.
Bu sözü çaya atdım,
Sular qırmızı axdı,
Gözlərimdə
Qıpqırmızı qızardı aləm;
Elə bil
Açılmışdı dünyanın
Qırmızı baxtı!..

## LƏYAQƏT

Ləyaqətdi insanı
İnsanlıq zirvəsində saxlayan.
Memarı Allah olan insanın özülündə
Ləyaqətdi ilk laxlayan.
Ləyaqətdi nəfsi cilovlayan,
İnsanı cilalayan.
Vicdana keşikçidi
Həmişə
Ürəyin başı üstə durur;
Ürək uşaqlıq edəndə,
 sillə də vurur,
Qoymur ərköyünlük etsin.
Ayaqları buxovlayır.
Qoymur
Ürək getməyən yerə getsin.

Ləyaqəti gözdən iti,
Ağıldan güclü olmasa,
Vay o adamın halına;
Ha belinə min,
Ha belinə mindir...
Dindirsən, acı dindir.
Şirin-şirin danışsan,
Deyər: - Hərifdi, qorxur.
Asta deyib,
Usta deyib el oğlu;
«Eşşək nə bilir zəfəran nədir?»
Ləyaqət olmayanda
İt kimi əl yalayır,
Milçək kimi hər şeyə qonur insan...

**1991**

## İLHAM

Lazım deyil soraqlayasan,
Ürək qapısını döydümü,
Gərək süfrə açıb qonaqlayasan.
O sözü ki, ilham qaldırır,
Gücü çatmaz qaldırsın
Əsrin maşını.
Söz, dağdan ağır kişini
Oynadır yerindən.
Şeir deyil,
İlham ətri gəlmirsə şeirindən.

İlhamsız şeir yazmaq,
Meşədə odun doğramaqdı,
Sənin olmayan təknədən
Çörək oğurlamaqdı.
Daş yonmağa da ilham gərəkdi.
İlhamın meydanı,
Yer kürəsi, səmadı,
Yatdığı yer ürəkdi.
İlhamsız söz çürük qozdu,
Kağıza qonan tozdu.
İlhamın yoxdursa,
Ağnama söz meydanında.
Konfet istəyən uşaq deyilsən,
Ağlama söz meydanında.
Söz çıraqdı, ilham yağı.
İlhamla yanan sözü
Söndürə bilməz
Əsrin tufanı, yağı.
İlham ürəyin hökmüdü, canın şirəsi.
İlham anında süzülür söz
Şandan bal süzüləntək.
İlham candan üzülən candı,
Üzülür,
Anadan bala üzüləntək.
İlham - şimşəkləyən buluddu
Bir də gördün
Bir çəmənə çox yağdı,
Bir çəməni unutdu.
İlham - qəfil çağlayan seldi;

Sənindi, misra arxlara qoşub
Söz çəməninə yönəldə bilsən,
Sənindi, həmişə üzünə gülsən.

## MÜHİT

Ən güclü təsir;
Nə ləngiyir, nə tələsir.
Aldadıb, başını qatıb,
Adəmi cənnətdən atıb,
Mərhəmət göstərib - Yeri yaradıb.
Daşlar mərmər olur,
Sürünənlər quş, mühitdə.
Ağıllını dəli edir,
Dəlini ağıllı.
Hər mühitin öz küləyi əsir.
Mühit qaldırır yerə yaprıxan otları
Adam boyu.
Mühit bayquşu qartal edər;
Dəyişib adətini, kürkünü.
Səhrada bitən qanqala bax;
Gör necə coddu,
Meşədə ipək kimidi.
Gül içində daşa bax,
O da çiçək kimidi.
Böyük mühit daşıyır böyük yük,
Böyük mühitdə yetişir böyüklük.
Mühitin zirvəsidir
Nəsimi də, Sabir də...

## HÜNƏR

Zülmətdə yol gedib azmamaq.
Göz görə, ağıl kəsə,
Söz dilini kəsə,
Əlin qələmdən küsə,
Sınmayasan!..
Nadan sözünə dözmək,
Yönü məlum olmayan
Səssiz güllə yağışında gəzmək,
Yarımçığı başa salmaq,
Koroğluluq, Sabirlik,
Nəsimi zirvəsi,
Rəsul ömrü, bənövşə gülü,
Hadi yanğısı,
Üşüyənin canında, sözün qanında
Alova çevrilən Səhhət çınqısı.
Darı boyda yaxşılığı dağ bilmək,
Özünü görmək, özünə gülmək...

## GÜNƏŞ

Kainata sığa bilmir.
İynədən keçir.
Hər şey Yerdən göyə boy atır,
O, göydən yerə cücərir işıq-işıq.
Nüfuz edir dərinliyə;
Mis, qızıl yoğurur torpaqda.

Nələr doğur,
Nələr boğur, kim bilir?
O qədər uzaqdı ki,
Babalara atılan işığı
Kötükçələrə çatır.
İşə bax
bu qədər uzaq olasan,
bu qədər seviləsən?!
Həm öldürəsən,
Həm də üzü ağ olasan?!

**İyul 1991**

## OHA

Öküz dilidi,
Kəl dilidi;
«Ho, maral», «ho, maral»!
Deyə-deyə
Səsində bir az hökm,
Bir az yalvarış
Öküzü dağa çıxardardı
Həsən kişi.
«O...o...ha, maral», «o...o..ha,» -
deyəndə.
Ehtiyatlı ol - deyirdi
Öküzlərə Həsən kişi.
Səsinin ahəngindən,
Bilirdi öküzlər,

Dağdan enir,
Aşa bilər araba,
Bata bilər öküzlər.
Öküzlərin dilini bilirdi
Həsən kişi.
Həsən kişinin
dilini bilirdi öküzlər.

**Yanvar 1992**

## MÜHARİBƏ

Ülgücündən qan sızan qılınc,
Atom sınağından sonra
Ərimiş daşların buz salxımı.
Ölmüş insan ovcunda
Torpaq eşqinin bir sıxımı.
Fikrin dar qəfəsi.
Günəşin bəşəri dəli edib
 əyləndiyi günlər.
Bahara gəlməsinə peşiman güllər.
Gözü yolda qalan analar,
Baharı çırtdamayan gəlinlər.
Qollu, ayaqlı gedib,
 qolsuz, qıçsız gələnlər.
Dəli olub
ağıllı kimi gülənlər.
Ölmüş anasının
 döşünü əmən körpə.

Kişisiz evlərdə yanan gərmə.
Həyatın ən böyük prizması - çörək.
İnsanın nifrət qınından sıyrılması.
İnsanın dəyərsizliyi,
 ölümün ucuzluğu,
Namərd toyu,
Mərd ölümü.
Aman...n..!
Söz kəsdi əlimi...

## ACLIQ

İçimin canavarı,
Gözümün qorxusu,
Hər şeydən qorxunc,
Ölüm qoxusu.
Köləlik zənciri,
Kölәlikdə cənnət vədi.
Millətin başı üstə
Sıyrılan qılınc.
Gündüzün gecəliyi.
Dünyanın darlığı.
Günəşin rəngsizliyi,
Odun soyuqluğu.
Sözün gücsüzlüyü,
Qarışqa şıllaq atdı,
Dəvənin qıçı sındı...
Aclar

qəribliyə salmasın sözümü;
Aclıqdan güclüdür
İnsan iradəsi,
İnsan dözümü!..

## İŞIQ

Ürəyin gecəsindən
İşığa qaçır söz -
Ürəyin sirrini açır söz.
Torpağın zülmətində
Kökləri «çörəyə»
Əlləri işığa sürünür otun.
İşığın Məcnunudu günəbaxan.
İşıq - Fərhadın Şirini,
Məcnunun Leylisi,
Hər kəsin sevgisi.
İşıqdı ana südü;
İşıqladır boyumuzu.
İşıq - ata arzusu;
Çaldırır toyumuzu.
İşıqdı günəşin tacı,
Yaranışdan
Yer də, göy də işıq acı.
Allahın işığıdır əlimdə qələm;
Sözə can verir.
Allahın nurudu dünyada çörək;

Elə qan verir.
İşıqdı torpaq,
İşıqdı vətən -
İşıqdı ürəkdə, vətəndə bitən.

## YAXŞILIQ

Söyüdlərin xoş nəfəsi - Yaxşılıq.
Yer üzünün
Körpüləri, körpələri - Yaxşılıq.
Ağacların çiçəkləri - Yaxşılıq.
Göyün qarı, yağışları - Yaxşılıq.
İstilikdi, məhəbbətdi,
İtə bilməz yaxşılıq.
Kim dedi ki, - qaç, etmə,
İtə bilməz yaxşılıq.
Yaxşı-yaxşı
Adamlardı yaxşılıq;
Məhəmməddi, İsadı
Yer üzündə yaxşılıq.
Fırlanmazdı
Yer çıxardı oxundan.
İnsan oğlu
Ot yeyərdi axurdan
Olmasaydı, qalmasaydı
Bu dünyada yaxşılıq.

**25.11.91**

# PAXILLIQ

Ürəyin xıltı,
Fikrin qazan hisindən qara
Qarası.
İnsanın içindəki buynuzu.
Canavar dişli quzu.
Paxıllıq işığa düşməndi,
Qardaşı ola.
Paxıllıq;
Kor istəyir,
Kar istəyir dostu.
Paxıllıq
 Meyvədəki qurd kimi
Yeyir içini paxılın.
İnanmırsan,
Tanıdığın paxıla bax,
İynə udmuş it kimidi.
Həyat;
Xeyirxahın işığı
Paxıllıq;
Paxıl ürəyin,
İlan dişinin zəhəridi.
İlan zəhəri,
Əla dərmandı daha.
Paxıllıq;
Zəhər olaraq qalacaq
Bu gündən sabaha.
Deyirəm;

Paxıl olma, həsəd çək.
Həsəddən
Yaxşıdan yaxşı,
İşıqlıdan işıqlı olmağa çalış.
İşıq gələn yerə
Qurğuşun tökmə.
Ağa qara demə paxıllıqdan.
Vətən küsər
Qəlbindəki bu xıltdan.

## FƏRƏH

Sevincin ekiz tayı.
Tanrının oğul payı,
Oğul toyu,
Övlad hünəri,
İşıqlı fikir,
Bəşəri ağıl,
uşaqlara qanad verən nağıl,
Kədərin sonu,
Söz çırağı.
Anamın kitab köşkündə
İlk kitabımı gördüyü gün,
açılan düyün.

## XƏYANƏT

Baxsan,
Adama oxşayır,

Güldürə güldürə yaşayır.
Gah gözəlliyinə,
Gah da çirkinliyinə arxalanıb
Alçaqlığın zirvəsinə qalxır.
Hamıya düşmən kimi baxır.
Əlinə daş götürsə,
Çalışır, başa salsın.
Təzə paltar geyinsən,
Deyinər: - Təzə qalsın.
Su yeridir saman altdan,
Qəfil çıxır kol dibindən,
Yolçu yıxılsın atdan.
Bir Günəş işığa kor olur,
Bir zərrə gecəni görür insanda.
Həmişə fikri, nəfsi ac olur,
Nadan başa tac qoyur;
Qarışsın ölkə,
Alışsın millət,
Gül açsın zillət.
- Vətən! Vətən! deyib alışır;
Hey millətdən danışır,
Millət oğlu gələndə;
- Ağ eləmə çox,
Yol mənə kimidi,
Məndən yuxarı yox! deyir.
Sağa da,
Sola da açılan qapıdı.
Bilmək olmur
Horradı, qatıdı,

Erkəkdi, dişidi.
Torpağı azotla boğdu,
Mələklərlə görüşüb
Şeytan doğdu...

**1991**

## SƏBR

Dözümün sonsuzluğu,
Asta gediş, asta gəliş.
Üzünü görməyib ağrılı baş,
Səbr;
Soyuq baş, odlu ürək.
Yolun uzaqlığı,
Qələbənin labüdlüyü.
Müşkül işlərin açarı.
«Səbr ilə halva bişər
Ey qora, səndən».
Səbir var planetlərin cazibəsində.
Mayası səbrdi yer kürəsinin.
Səbr - sözün kökündü;
Sabir - budağı.
Sabir səbrə sığınıb yaratdı
«Hophopnamə» qalasını.
Bakıda - Sabir bağında
Səbr ilə oturub Sabir
Bir qocaman dağ kimi.
Səbrin tarıma çəkilib
qırıldığı günə vay!..

**İyul 1991**

# SÖZ

Barıtsız,
Qurğuşunsuz güllə,
Ürəyə qoyulan məlhəm.
Qocanın əl ağacı,
Tək adamın həyanı.
İnsanın, yer kürəsini
        çevirə biləcəyi
        dayaq nöqtəsi.
Ən təmizini, istisini
Gözlər deyir.

Söz götürən ürəklər
Sözdən qabar-qabardı.
Nadanların dilində
Sözün qəlbi qubardı.

Şairlərin ürəyidir
Söz şəhəri, söz ölkəsi.
Ürəkdəki ilhamdı
Sözlərin sərkərdəsi.
Zülmətlərin ən qaranlığı,
Mütiliyin ən pisidir.
        söz kölgəsi...

Allahın nəfəsi dəyib,
Allahın səsidir söz;
«Ol»du sözlərin kökü,
«Ol»du sözün mayası.

Sözlə nura qərq olur
      insan dünyası!
Sözlə yonulur insan...
Çıxır canımın canı,
Çıxmaz sözümün canı!..

## HƏSRƏT

Vüsalın astar üzü,
İnsansız planetlərin
      dağı, düzü.
İki paralel ömür.
Yanmaq üçün qaralan kömür.
Atasını görməyən
      uşaqlara qoyulan ad,
Bir xalqı iki bölən
düşmən ağzındakı dad.
Leyli və Məcnun arasındakı
      min illik məsafə,
Açarı tapılmayan fəlsəfə,
Öpüş üçün çırtdayan dodaq,
Qürbətdə qalan oğul,
Zülmətdə qovrulan ana,
Tayını itirmiş sona,
Tapılacaq kəşflər,
Ömrü boyu dul kişilər.
Nəsirəddin Tusiyə
və Kolumba kimi Amerika.

**1990.**

Elə ki,
şeir yazmağa başlayıram -
Sözü
Ürəyimin, fikrimin
Kimyasında aşlayıram,
Vaxt elə bil
        şahin qanadı geyir.
Elə uçur,
Elə qaçır,
Ayılanda görürəm
        gecə keçib yarıdan,
İti seçmək olmur qurddan.
Səhər döyür qapını.
Deyirəm: - Tezdi, səhər.
Niyə belə tələsirsən?
Səhər deyir:
- Mən nə tələsə,
nə də gecikə bilərəm.
Sən gecəni yemisən,
- hələ axşamdı! - demisən.
Şəhərə
        mənimlə gəlmisən.

**10.01.10**

## FÜZULİ NARAHATDIR

Füzuli narahatdır qəbrində,
Hər an partlaya biləcək
Bir üsyan çırpınır qəlbində.
Hər saat haraya çevriləcək

Bir sual qıvrılır səbrində.
Hər gələndən soruşur;
Əsrləri yorub gələn,
Gah ağlayan, gah gülən
şeirimizin
dördüncü divarı hörüldümü?
Əsrlərin o başında
Bu başında yaşayan
Şair göründümü?

**27.11.09.**

## LEYLİ VƏ MƏCNUN

Bir qaranlıq gecədə
Atamdan və anamdan,
Kimdən, kimdən gizlicə
Allahım göydən enib,
Kəbin kəsdi söz ilə.
hələ körpəyəm deyə,
İllər boyu mən sözdən,
Söz məndən ayrı gəzdi.
Elə ki, pərvazladım,
Yetişdim budağımda,
Söz durdu dodağımda;
Ağacda alma, heyva,
Tağda şamama kimi,
Başı taclı nar kimi,
Yer bətndə çevrildik,

Biz də sevib-sevildik.
Mən sözə - Leylim - dedim,
Söz mənə - Məcnun! - dedi.
Xəbəri yoxdur göyün,
Gecələr ürəyimə
Söz axır löyün-löyün.
Ay bilənlər, siz deyin:
Həyata bizim kimi
Leyli, Məcnun gəlibmi?
Dünya bizdən görübmü?

**28.07.09.**

## SÖZ İÇİNDƏYƏM

Mən sözün içindəyəm,
Sözlərimin içində
        əkində, biçindəyəm.
Sahili görünməyən
        söz içində üzürəm,
Gah batır, gah çıxıram,
Əl verib, əl sıxıram.
Qəzəbləyir qəm, kədər,
Orbitimdən çıxıram,
Sözdən çıxa bilmirəm.

Söz içində körpəyəm,
Sözdən sözə körpüyəm.
Sözlərimə söykənib

Yerdə körpü qanadım.
Sözüm baharlayanda,
Söz selində qanadım.
Söz ləpə öpə-öpə.
hər yaramı sarıdı, -
Üzüm nura sarıdı...
hərdən baxıb görürəm,
Mən sözün küncündəyəm.
Nədir səhvim, günahım,
Mən hələ də bilmirəm.
Düşünürəm; - ölmürəm,
Mən niyə yaşayıram?
Söz içində fəryadam,
Qəfəsdə bülbül kimi.
Gərək duyğu oyadam,
Çiçək kimi, gül kimi.
Şairəm, söz içində
Vaxtımı sözləyirəm.
Sözümdən çıxacağım
günümü gözləyirəm,
Yıxılım, ölüm, Allah.

**23.01.10**

## ZAMAN VƏ SÖZ

Quzu kimi mələyir,
Hər yana səs ələyir
Cibimdəki telefon.
Bacım qızı Pərvanə,

Zəng edir Şamaxıdan
Elə bil ki, dağlardan
Axan şəlalədir söz;
Yol alır qulluğuma,
Tökülür qulağıma.

Əlcə boyda telefon
Sözlərin yuvasıdır,
Sözlər üzür quş kimi,
Dünya söz dünyasıdır.
Söz ki olur peşiman,
O gün olur pərişan.
- Məni incitmə - deyir!
Xəstələnir, ağrıyır,
Bizdən küsür qəfləti,
Kəsir hər cür ülfəti.
- Deyir: nadan, ayıbdır,
Sən mənimlə oynama,
Ləkə düşər aynama.

**27.06.09.**

## VAXTIM HANI

Vaxtım hanı, ay ellər.
qulaq asam nadana?!
Düşünməyin bekaram:
Xəbislər hədəfində
Bu vətən, millət üçün
Nəğmə deyən şikaram.

Hürsün, hürsün töküntü,
Su dibinldə çöküntü
Onlar hürən küçüklər,
Mən yol gedən bir filəm.
Çiçək-çiçək sözləri
        səpirəm ürəklərə.
Göylərə boy göstərən
Qərənfil, qızılgüləm,
Keçər illər, əsrlər:
Bir yeni nəsil gələr -
İnsanın əsli gələr.
yox olar həşəratlar,
Bax, mənim səsim gələr.

**17.07.09.**

## BAXMA Kİ

Qələm adamını
        yadlar sevir,
Doğmalar qınayır.
Yadlar ummur,
Doğmalar umur deyə
Çətinə düşən kimi
Cumur üstünə
başına döyə-döyə.
Qələm adamının
Qələmdən başqa nəyi var ki,
Neyləyə?

Qələm lüm-lütdü,
Verməyə heç nəyi yoxdu.
Baxma ki, Xaqani, Nəsimi,
Şekspir böyütdü.

**2009.**

## ÖLDÜRƏNDƏ BİLMİŞƏM

Qorxa-qorxa gedirəm,
Qorxuram ki, günahsız
Qarışqa ayaqlayam.
Sözü deməzdən əvvəl
Gün kimi tellənirəm.
Qorxudan tir-tir əsir,
Şölətək yellənirəm.
Sözü dualayıram, -
Selində axan olar,
Eldə kimi, kimləri
Yandırıb-yaxan olar.
Ürəyin istisini
 kimsədən azaltmıram,
Qorxdum üşüyən olar.
Yetənə əl açmıram,
Deyərlər pay umuram.
Bu dilim deyilməli,
Qəm dolu sözdən şişib.
Söz olub deməmişəm,
Qəfil ağzımdan düşüb.
Nə yaxşı ki, ay ellər,

Deməmişəm hər sözü.
Qorxmuşam məni birdən
      yandırar sözün közü.
Sözü ələyə-ələyə
Seçə-seçə demişəm.
Şəkəri elə verib,
Ödunu mən yemişəm.
Ürək şişib, dil çaşıb
Düz söz nədir, söz məni
Öldürəndə bilmişəm.

**20.11.09.**

* * *

İskəndərəm!
Gəlirəm eranın o üzündən.
Aşmışam əsr-əsr dağları,
Keçmişəm əsrlərin düzündən.
Əsrlər dizimdən,
İllər topuğumdan olub.

Onun qılıncı polad,
Mənim qılıncım qələm!
Onun qılıncı baş kəsib,
Mənimki bilir aləm,
Sönmüş ürək közləyib.
O çəkdiyi dağları
gəlib sağaldım deyə,
Zaman məni gözləyib.

**15.11.09.**

# ÜRƏK ELƏ AĞLADI

İlham daşdı, çağladı,
Səs dolu avtobusda
Şeiri yaza bilmədim.
Qıymadı, qoymadılar,
Gül vaxtıma susamış
Bu imanı əlillər, -
Mənə söykənən əllər.
İncidi, küsdü ilham,
Salamı kəsdi ilham.
Evə gəldim sinəmdə
şəhid olan sözlərin
Xatirəsi çağladı.
Balası ölən kimi
Ürək elə ağladı,
Məni Allah saxladı.

**27.12.09.**

# A ŞAİR

Tülkülər qudurub pələng olublar,
Çoban çomaqları tüfəng olublar.
Sərçələr, cücülər nəhəng olublar,
Sındır qələmini tulla, a şair.

Tulalar sülənir söz meydanında,
- Dahiyəm! Söyləyir öz meydanında.

Od sönüb, kül qalıb köz meydanında,
Hürəcək üstünə tula, a şair.

**20.12.09.**

## YOLLARIM YAMYAŞILDIR

Qəndqabının qəndi qurtarıb,
Şeirdən ayrılmadan
Əlimi uzatmamışam,
        boş qaytarıb.
Çayım qalmır hikkədən.
Çayımın küsməsindən
        əlim üşüyür.
Alqışlar yarışında
        finişə çatan kimi
Dil ağzımda töyşüyür.
Bircə qurtum çay üçün,
Alt dodağım inciyib
        üst dodağımdan küsüb.
Ürək də acığından. -
Bəlkə də aclığından
        başla salamı kəsib.
Məni vərdiş yaşadır.
İllərin üstə çıxıb
Sabaha boylanıram,
Yollarım yamyaşıldır.

**4.10.09.**

## NECƏ YAZIR

İlham elə yatıb ki,
Dərddən, nədən bilmirəm,
Elə dərin batıb ki,
Yer dağıla, oyanmaz.
Şeir yazmaq istəyim,
Gedir külək ağzında,
heç nə yaza bilmirəm.
Ah, heç nəyi, heç nəyə
Baxıb yoza bilmirəm.
Bəs ilhamsız adamlar
Necə yazır «şeirini»?

**29.07.09.**
**Şamaxı.**

## SÖZ TOYU

Qələm məni azdırıb
Tapanlar, ay tapanlar,
Məni mənə göstərin.
Ay məni axtaranlar,
Qızıl kimi vaxtını
Yoluma axıdanlar.
Bircə əlçim buludam,
İlham qovur yağdıra.
Yağam, açıla yerdə
ürəyimin göy üzü,
Dənizlənəm söz boyu.

Əriyəm, hey əriyəm,
Görəm yerdə söz toyu.

**11.09.09.**

## ƏLİ KƏRİMLƏ SÖHBƏT

Əli Kərim,
hər sözündən, şeirindən
Yerdə ümid əmirəm,
hər gün ümidlənirəm,
hələ - Doydum! - demirəm.
Hər sözünün siqləti
Boyundan çox, çox ağır.
Şeirindən hikmət yağır.
Ürəyi, fikri yağır,
Ürəyində bitməyib,
Qonşudan gəlməyibsə,
Bilməz söz plov nədir.
Bir qəpiyə dəyməyən
        ov eşqinə meşədə.
Dağda cığır azmayan,
Dağların kağızına -
        dağda imza yazmayan
Nə bilər ki, ov nədir?!
Hər sətirin qələmlə
        silkələnən Günəşin
Yerə düşən şüası,
Yeni gələnlər üçün

bir ağsaqqal duası.
Sözün böyüklüyünü
Qələminlə göstərdin.
Şeirin çatmazlığına,
Güman yetməzliyinə
cavan yaşında yetdin.
Sözün gedilə bilməz
Zirvəsini tez görüb
- Bu, mənlik deyil! - Deyib
Sən qəfildən dayandın.
- Söz şam, mən pərvanə
Deyib sözə dolandın.
Təzə sözlü fikrini
duymayıb da hürənlər, -
hanı namərd kürənlər?!
Nur udub qaranlığı, -
Yerdə nigaranlığı.
Bəzən də zülmət udur,
İşığı Yer üzündə.

Artır Yerin qəzəbi,
Tez qalxır qan təzyiqi,
Bax, gülür it uşağı.
Qəribədir ay Əli,
hər it balası itdi,
hər bit balası bitdi,
hər qurd balası qurddu,
hər adamın balası
Niyə adam deyil bəs?!

Bilirəm, bu suala
        cavab vermək çətindi.
Sirkdə qırıq qənd üçün
hər gün dombalaq aşan
Şir balası şir deyil,
Ayı balası ayı.
Nədən, elə insan var,
        eldə heyvan kimidi?
Axı, o heyvan deyil.
Söz də sənə inandı:
O, bir - Allah - deyəndə,
İki - Əli Kərimdir!
      Dedi.
Ürəklərdən demirəm,
Gözdən uzaq olmazdın, -
Yəni ki yıxılmazdın.
Baxıb söz zirvəsinə,
Sən heyrətdən yıxıldın.
Sən can alan sözlərdən
Qisas almaq istədin.
Söz səni qabaqladı.
Sözə qısqanan torpaq
Tez səni qucaqladı...

**22.06.09.**

## ŞAİRSƏN

Deyilən sözü otlar,
Daş, divar da eşidər,

Yaxşısından sevinər,
Yamanından üşünər.
Dilin dal qapısında,
Ürəyin kölgəsində,
Başın söz ölkəsində.
Deyilməyən, gizlənən
Sözü eşidə bilsən,
Deyərəm ki,
Əhsən! Şairsən!

**06.02.16.**

## ÖMRÜM

Sən tarixsən, ay ömrüm,
Dalğalara sinə gər:
Əsrlərə sütundu
Sözlə dolu sinələr.
Sən gurla ki, nadanlar
Qorxub yerə sinələr.
Elə əs ki, xəbislər
Küləyindən sönələr.
Bərk yapış qələmindən,
Xilaskarın qələmdi.
Bir gün gülər, sevinər,
Baxma bu gün qəm əmdi.

**31.01.10.**

# SÖZ GƏLİN

Eşit, eşit, söz gəlin,
      eşit şair səsini,
Aç sinənin düyməsini.
həsrətdəyəm, nəyin var
İç dünyanda, söz gəlin?
Sevgilimsən, sevinnəm
Dərdimi gözlərimdən
Sən duyanda, söz gəlin.
Nə qədər cəhd edirəm
Enə bilmir səndəki
dərinliyə gözlərim.
Aç sinənin düyməsini,
Daha dözə bilmirəm,
      bəsdi, bəsdi, gözlədim.
həsrətimi kömürtək
      yandırıb köz-köz edib
Ürəyimi közlədim.
Aç sinənin düyməsini,
Baş qoyum ağ siənənə.
Kim qınasa şairi,
Deyim: - Paxıl, sənə nə?
Görüm səndə nələr var,
Göyün hara kimidi?
Səndə Günəş odludu,
Yoxsa ki Ay, söz gəlin?
Ayın da saxlayırsan,
İllərin və ayların

hesabını sayını?
Dağlarına, yoxsa ki,
düzlərinə yağır qar?
Güllərinin adı nə?
Meyvələrin dadı nə?
Torpağının rəngi nə?
Yel kaman, tar küləkdə,
Simlərin ahəngi nə?

Aç sinənin düyməsini,
Gəl səni tanış edim
içimdəki ələmlə
Saçlarını darayım
əlimdəki qələmlə.

Aç sinənin düyməsini,
İşıqlansın gözlərim.
Səyahətə çıxacam.
Mən ömrümü, günümü,
Söz, sinənə sıxacam.

Eşit, eşit, söz gəlin,
Aç sinənin düyməsini,
Gəlim, sevin, fərəhlə
- Xoş gəlmisən - de mənə,
Süfrələ hər nəyin var.
Gördüyümü demirəm,
Nəfs məni azdırar.
Mən özümü sinəndə

Duyduğuma yetirim.
Kimsənin görmədiyi,
Nəyi versən, götürüm,
İlham üçün, gətirim.

**07.02.10.**

## KİMDİ MƏNİ EŞİDƏN

Bəzən elə düşünürəm,
Bir Yer kürəsidi, bir də mən.
Dəhşətdən üşünürəm.
Sözüm məndən milyard il əvvəl,
Nuhdan qabaqkı əsrlərdən gəlir.
Nuh söykənib sözümə,
Peyğəmbərlər sözümdən tutub
Meraca çıxıb...
Sözləri əridib
Günəş hərarətli ürəyimdə
Təzədən tökürəm.
Sözüm söz olsa, əgər,
Kar eşidər, kor görər.
Qurd quzuyla otlayar,
Yel oynar, dağ yeriyər,
Ölüm yüklü təyyarə
Şimşəklənər havada.
İlk insan yarıçılpaq
Qaçıb tüstümə gələr.
Min il sonrakı əsrlər

- Böyük şairsən - deyib
Durar, üstümə gələr.
Sözüm söz olsa əgər,
Ölüyə nəfəs verər.
Sabir çıxıb qəbirdən,
Səsimə nəfəs verər.

Sözüm söz olsa əgər,
Oğul, qız çolpalayan,
Yaralanan, son sözü
dodağda çapalayan
Ay anam sönməzdi ki...
Bu sözdən əvvəl sözün
Ürəyi partlamazdı.
Sevgilim, ölüm səni
Məndən əvvəl görməzdi.
Sözlərim söz olsaydı,
Közlərim köz olsaydı,
Dünyaya - qazan - deyib
Köz qoyardım altına,
Günəş dənizləri qaynadan kimi
Yatmış fikirləri qaynadardım.
İnsan beynini yüzə yüz oyadardım.
Yerin küləyi kələyi süpürərdi,
Fikirlərin əyrisini, tozunu tökərdi
Göyün Günəşi
Bizə baxıb utanmadı.
Heyf, heyf, çox heyf...

## ŞƏHƏRDİ ŞEİRİM

Dənizə baş vuran qəvvas kimi,
Gecənin dibinə baş vurub
səhərə çıxmışam.
Fikrimin, şeirimin hər sətrinə
Çiçək şeirlərin söz çətirinə,
Budaqdan dərilən təzə nar kimi,
Gözlərimi, ürəyimi sıxmışam.
Göyün qaranlığı sökülməyəndə,
Şimşək kimi çaxmışam.
Dağ ürəyini əridib
Zəmiləri, bağları yaşadan kimi,
Əriyib qorudum qaranlıqdan,
Quraqlıqdan şeirimi.

Polad kimi əriyib
Misra-misra tökülən,
Günəş içib
üfüq-üfüq sökülən
Səhərdi şeirim.
Ürəyim döyünən,
Səkiləri misra-misra uzanan
şəhərdi şerim.

**05.06.04.**

## MƏNİ UNUTMAZ

Mən öz ürəyimi əritdim sözə,
Məni unutmaz.

Qoşub damarıma,
Od saçan qanımı yeritdim sözə,
Məni unutmaz.

Nadan adamların şilküt etdiyi
Sözü əzizləyib cana gətirdim.
Can verən sözləri tələsik alıb,
Salıb ürəyimə qana yetirdim,
Məni unutmaz.

Atadaş, Oğuldaş,
Qarındaşlıq - qardaşlıq,
Birdi düşüncəmiz, birdi fikrimiz,
Qoşa həll edirik dərdi, fikri biz.

Həftəbaşı, günbaşı
Süfrə açıram sözlər üçün.
Çırmanlanıb dağda çay keçən kimi,
Ömrümdən, günümdən keçib sözlərim,
Qələm yeyib, Şamaxının şərabıtək
Məni qədəh-qədəh içib sözlərim,
Məni unutmaz...

**28.07.03.**

## SÖZ VAR DEYƏ

Dünya gəlməz
bir sözün çəkisinə,
Bir sözün içindədi
Planetlər.

Yaşayacaq bu həyat
Sözün cazibə qüvvəsində!
Söz saxlayır, yaşadır
Göy qübbəsini də!..
İnsan deyil,
Sözü top kimi qaytaranlar.
İşıq ilindən uzun, çox uzun,
Allahla bəndə arasındakı
Yol qədər uzaq və çox yaxın
Söz ilindən gəlir söz.
Bizə çatanı, çatmayanı var.
Nadan görüb, qəzəbdən
Sınanı, çatlayanı var...

**26.01.04.**

## ŞEİR YAZIRAM

Mən şeir yazıram, qara gecənin
Sevinci çırtdayır, bayram edirdi.
Anlar, dəqiqələr, yüklü saatlar
Əl-ələ yapışıb yallı gedirdi.

Kağız ağlar qalıb gör neçə vaxtdı,
Sinəsi sözlərə həsrət çəkirdi; -
Göyündə buluddan soraq gəlməyən,
- Su! - deyən torpağa duman çökürdü.

Təzəcə doğulan körpə şeirimə,
Ulduzlar səmada əl çalırdılar.

Şeirimdən od alıb şimşəklənməyə
Buludlar yerəcən alçalırdılar.

Yaman narahatam! Yağış qabağı
Buludu çalxanan səmalar kimi.
Qaynayıb daşıram, hayqırır içim,
İçindən qaynayan samovar kimi.

Heyrətdən sinəmin közü alışdı,
Oda bənd İskəndər özü alışdı,
Sonra da od tutub sözü alışdı,
Ağrıdan, çat verən sinəm söküldü,
Kağıza közərən misra töküldü.

**25.02.04**

## ƏRİYİB TÖKÜLDÜM KAĞIZA SÖZ-SÖZ

Açılıb-bağlanır hər gün laybalay,
Dodaqlar dilimin söz qapısıdır.
Söz var ki, üfüqdə parıltı kimi,
Söz də var, fikrimin qaraltısıdır.

Yoğurub sözləri can şirəsiylə,
Hər sözə lətafət verir ürəyim.
Yanıram, tüstümdü çıxır başımdan,
Hər sözə hərarət verir ürəyim.

Ov üçün qırmalıq qurğuşun kimi,
Əriyib töküldüm kağıza söz-söz;
Gözlər dənlədilər, ürəklər içdi,
Oldum baxışlarda, ürəklərdə köz.

**01.02.04.**

## ŞEİR YAZMAQ İSTƏYİRƏM

Deyiləm özümdə,
Qaranlıq da işıqlıdı gözümdə,
şeir yazmaq istəyirəm.

Qış da bahar kimidi,
İşıq - yanan günəşin külüdü,
yaşayan torpağın gülüdü,
şeir yazmaq istəyirəm.

Çirkinlər gözəl olub,
Qaranlıq gözdə solub,
Dünyaya işıq dolub,
şeir yazmaq istəyirəm.

İçimdəydi,
buraxmışam sükutu,
mən sükutun içindəyəm.
Söz zəmisi yetişib, -
Sübh namazdan biçindəyəm,
şeir yazmaq istəyirəm.

Sarısı dimdiyində,
süd qoxulu səhərin,
kal yuxulu səhərin
gözlərinə baxıram.
İlahi,
Sənə necə yaxınam!
Şeir yazmaq istəyirəm.

## NƏ VAR Kİ

Bürünmüşəm
dünyanın məhəbbətinə,
yaşıl ağac kimiyəm, isti ocaq kimiyəm.
Zamanı vaxtında yaxalamışam,
salıb ürəyimin təmizliyinə,
vaxtı dəsmal kimi yaxalamışam.
Büküb ay nuruna, günəş oduna,
Pisləri ömrümdən yox eləmişəm.
Sabahkı ömrümə açılım deyə,
masa arxasında yuxulamışam.
Sıxılıb şeirimə qızılgül kimi,
Şeir həyatımı gülablamışam.
Çirkli sözlərimi dağ çaylarında,
Çirkli köynək kimi
gülablamışam.
İndi səsəm, sözəm, saxlayın məni,
Cismimi tapşırın qara torpağa.
Səsimdən, sözümdən tapılmasa da,
Nə var ki, həyatda məndən tapmağa?!

**Mart, 2003.**

## QƏLƏM

Başımı cəllad kötüyünə qoydun,
Ruhumu cənnət göyünə qoydun.
Qələm, səndən küsmədim,
Bağır basdım salamına.
Keçdim şirin canımdan,
Qələm, səndən keçmədim.
Nadanlığın tənəsindən,
Tamah dişli tələsindən
Ürəyim çat-çat oldu.
Buz bağlayan dəmlərim
Əriyib çata doldu.

Qələm, səndən küsmədim,
Bağır basdım salamına.
Keçdim şirin canımdan,
Qələm, səndən keçmədim.

**17.04.05.**

## SÖZ YOLU

Mən sözəm, sözəm,
Sözlükdən gəlirəm, söz şəhərində
Xaqani, Nəsimi, Sabir var idi.
Çox şair əsnəyir, ziyriy döyürdü,
Küçələr, cığırlar, yollar qar idi.

Xaqani cığırı elə dar idi,
O yerə çıxmağa güman yox idi.
Palçıq tapdayırdı çoxu bu yolda,
Şairlər əlindən aman yox idi.

Xaqani yanına - zirvəyə çıxan,
Cığırı pas tutub, yolu ot basıb.
Nəsimi, Seyid Əzim, Sabir yolunda,
Yüzlərlə süvari, tərli at batıb...

Zarıyır, inləyir hərə bir yanda,
İlham kəhərinin bağrı çatlayıb.
Yazıq İskəndərə, Sabir də bir gün
Uzadıb əlini, əli çatmayıb.

Sərbəst şeir yazdı, günah bildilər,
Hecalı şeirini bəyənmədilər.
İskəndər, hədərdi eşqin, həvəsin,
İnsanlar sözünlə bəzənmədilər.

**4.10.03**

## SÖZÜN LÜĞƏT ŞƏHƏRİ

İndicə gəlirəm söz dünyasından;
Söz almışam sözlərin anasından.
Söz oxudum gözlərin aynasından:
Səslədim,
Bəslədim,
Balam kimi.

Sözlə sözün toyunu etdim,
yaşadılar.

Lüğət şəhərində yaşayır;
Qonşu sözlər,
Qohum sözlər,
Əkiz sözlər,
Həmişə işlək - öküz sözlər!
Unudulub
Yaddaş dənizinin dibinə çökən,
Daşlaşan daş sözlər.
Qoşa gözlər kimi
Qoşa sözlər,
Ürəkdə dustaq,
Dildə dustaq,
Yaşaması qadağan,
Bir az «qudurğan» sözlər...
Nə vaxt istəsən,
Min ilham kəhərinə,
Get sözlərin lüğət şəhərinə.
Elçi göndər ilhamı,
Toy elə, gətir,
Gəlin olsun şeirinə.

Sözlərin göydən dərin,
qaranlıq gecəsi var,
İşıqlı gündüzü var.
Var elə pəhləvan söz,
Torpağımda dizi var.

Deyəsən çox danışdım,
Çəkin sözümün ətəyindən,
Yoxsa,
nəfsim ayrılan deyil
söz pətəyindən.

**16.06.03.**

## MAYASI İLHAM OLSA

Sözü çərtdim, ləpələndi.
Qələm gəzmək istədi sözdə,
Ləpələr qəlpələndi.
Təmizlədim, əzizlədim,
Dənizlədim,
Şairlər çəksin qayıq,
Söz götürsün hər şair
özünə layiq.
Bilir Xaliq,
Şairlər balıqçıdı,
Sözlər balıq.
Söz də kürüləyə bilər,
Mayası ilham olsa!

## ŞEİR YAZMAĞA NƏ VAR Kİ

Üç diplomum var,
Əlifbanı bilirəm,
Sözü, dili bilirəm.

Nədir ölü,
Nədir diri, bilirəm.
Pendiri çox saxlayır
Motal-dəri, bilirəm.

Bilirəm, bilirəm ki,
Yumurtlayan toyuqdu.
Yay isti, qış soyuqdu.
Bilmədiyim nə qaldı?
Şeir yazmağa nə var ki?!

## YORĞUNLUQ

Şeiri yazıb qurtardım;
Asılmışam Günəşin
Əllərindən daş kimi.
Zoqquldayır bədənim,
Başım, beynim yaratək.
Hamını əzizləyir,
Yemləyir fəhlə ürək.
Elə bil ki lal, karam,
Dünya susuz akvarium,
Mən içində təkəm, tək.
Daş üstündə yatsam da
Durulub dincəlirəm,
Yenidən güclənirəm.

**05.11.06**

Mən günəşin ürəyiyəm,
Günəş mənim sözümdü.
Ulduzlar Yerə baxan,
Mənim milyon gözümdü.

Mən Yerəm, dağlar mənim
Sinəmdəki sözümdü.
Düşüncələr, duyğular
Ürəkdə ocaq çatan
Şeirimdəki közümdü.

## ƏLLƏRİMİN KÖLGƏSİ

Əllərim üşüyəndə,
üşümədi əllərimin kölgəsi.
Yox idi kölgə əlin gündüzü, gecəsi də
Görməsə də tər üzü,
Kölgə əlin hər üzü
buğlanırdı ilğım-ilğım!
Şeir dedim dinləmədi;
Baltaladım, inləmədi,
Tanrısını ünləmədi.
Qara şam kimi yandırdım
əllərimin barmaq-barmaq kölgəsini;
isinmədi,
diksinmədi...
Nədəndi bəs şərik çıxır
əllərimin kölgəsi əllərimə?!

Nə istəyir, nə verib
əllərimin kölgəsi illərimə?!
Günəşi bulayıb əllərimə,
- Gəl...! - deyəndə ellərimə,
Gizlənmişdi əllərimin kölgəsi!
Elə ki əllərim işığı tutdu,
Əllərimin kölgəsi məni unutdu,
İpi açılı it kimi
hara gəldi qaçdı.
Elə bil ki, dar ağacı olmuşam:
Əllərimin kölgəsi
meyid kimi məndən asılı!..

**2 oktyabr 1997**

## ƏSRİN SÖZLÜ AĞACIYAM

Əsrin sözlü ağacıyam:
Külək vurur yellənirəm.
Əsrin bahar yağışıyam,
Misra-misra sellənirəm.
Buludlanıb Babil üstə,
Bakı üstə yağışladım,
Dünya, sənə, - tarixinə,
Söz yağışı bağışladım...

**Bağdad. Dekabr 2000**

# GƏLİR

Mən hakimi-mütləqəm,
Mütləq canımdan gəlir.
Canımda hər nə varsa,
Mütləq, qanımdan gəlir.
Qandakı fərəh, kədər
Mənə anamdan gəlir.
Nütfəmi sevda doğub,
Sevdam atamdan gəlir.

Neçə dəfə doğulub
Qatılmışam torpağa.
Köküm, ana torpağın
Dərin qatından gəlir.

Demə - canım üzülüb,
Qar zirvəyə yağsa da,
Su durulub, süzülüb
Dağın altından gəlir.

Xaqani söz dağıdır;
Bütün ilham çayları,
Sızqovlar ondan gəlir.
Bu zirvədə söz donur,
Söz seli, söz harayı
Əriyən dondan gəlir.

**29.03.07**

# ƏN GÖZƏL ŞEİRİM

Ən gözəl və ən zərif,
İlhamlı incə şeirim,
Səni nə vaxt yazacam?
Bu külüng,
Bu bel qələmlə,
Nəsimini soyanın,
Söz oyanın qəbrini
harda, nə vaxt qazacam?

Ən gözəl və ən zərif,
İlhamlı incə şeirim,
Mən sənə yetəcəmmi?
Mən bitə biləcəmmi,
Bir gün sənin kölgəndə?

Yolunda zəvvar oldum,
Səsinə söz sırğası,
Axtaran zərgər oldum.

Bəlkə, bircə kəlməsən,
Bəlkə, bircə sətirsən?
Bəlkə də sən qönçədə
Hələ yatan ətirsən?

Ən gözəl və ən zərif,
İlhamlı, incə şeirim,
Sən bezmədin,
İtib, itib, göründün.
Mən bezmədim,

Arxan ilə süründüm.
Yollarına
həyatımı sıxmışam,
İlan kimi
qabığımdan çıxmışam.

Ən gözəl və ən zərif,
İlhamlı  incə şeirim,
İlğımmısan;
Mən gəlirəm, itirsən,
Başqa yerə yetirsən.
Mən dözürəm,
Tanrı dözməz, başına
Belə oyun gətirsən.

Ən gözəl və ən zərif,
İlhamlı incə şeirim,
Mən səni axtaracam
Yerdə ölüncə, şeirim.

**8 avqust 2001**

## SÖZ OYUNU

Bu, söz oyunudu, qardaş,
Mürəkkəbdi gedişləri.
Sən baş açan oyun deyil,
Əldə çomaq, sayılası
Kərə, kürə qoyun deyil.

Göydəki göyqurşağıtək,
Var hər sözün yeddi rəngi.
Sadə, aydın görünsə də,
Rənglərdə var fikir cəngi.

**29.05.03**

* * *

Yandım ilham oduna,
Sözlərin oda dönsün.
Ox kimi misralarım,
Su içsin ürəyimdən,
Misralarım polada dönsün.
Sözüm közləsin deyə,
Çalışdım ki, ürəyim
Yanan palıda dönsün.

**Dekabr, 2000**

## BAĞIŞLA

Bağışla;
Xəbərləri
Tələsik yığdı ürəyim,
Bu şeiri tələsik yağdı ürəyim.
Sözləri söz xırmanından
Seçib dənləməyə,
Hər sözü dinləməyə
Vaxt olmadı.

Yonulmayan
Sözlər də var şeirimdə.
Üstünü kül basmış
Közlər də var şeirimdə.

**2003**

## SÖZ - BİSÜTUN

Söz - Bisütun, Fərhadı mən,
Külüngümü qatlayır söz,
Haray çəkən fəryadı mən.

Söz Bisütun olsaydı, ah...
Onu çoxdan düz etmişdim.
Uzaqları qovuşduran -
Dəmiryolu düzəltmişdim.

Təngiyirəm, səngiyirəm,
Vaxt tələsir, ləngiyirəm.
Gülür mənə söz dağı, ah!..
Çəkir mənə göz dağı, ah!..

Qələm vurdum söz dağına,
Zərrə-zərrə söz parladı,
Yerə, göyə nur payladı.

Bu gülüşə, parıltıya
Qələm qapıb gələn nə çox!
Bu sərtliyi duyan nə az!

**02.04.06**

## SÖZ PƏTƏYİNDƏ

Düzlük, saflıq axsa da
Damar-damar qanımda,
Çoxdu mənim günahım
Söz Allahın yanında.

Söz Allahım
Əsgər deyil yanımda,
Dövr eləyir qanımda,
Məni, məndə çalxayır,
Məndə qürur saxlayır.

Söz atırlar, bir anda
Doluram bulud kimi.
İllik ömrüm tökülür
Budaqdakı tut kimi.

Süzüldüm, vaxt közlədi,
Şirin dillər sözlədi.
Yağış içən gül kimi
Vücudum pardaxlanır.
Sevgi içən ürəyim,
Fərəhə adaxlanır.
Baharlı ağac kimi
Həyatım budaqlanır.
- Dünya cənnətdi - deyib
Sevgi dolu ürəyim
Yaxa açır günlərə.

**2007**

# PƏRİŞANAM

Elə bil Allahın
İpliyindən qırılmışam.
Göydən baxana
Yeriyən daş kimi görünürəm.
Ayağıma dəyən daşı
    Götürməyə ərinirəm.

Eynimə deyil Yerin heç nəyi,
Məni ağı kimi göynədir
Dəli qızın gülüşü.
Diksindirə bilmir,
Qəfil uçan quşlar.
Əldən düşən tikə kimi
qaçır könlüm.

Könlümdə, fikrimdə
    duyğuların, hisslərin
Zirvəsindən şimşəklədim.
Açıldı könlümün göy üzü!
Yaza gələn torpaq kimi
    açıldı könlüm,
Yağdı sözün gürşadı.
Misralayıb bəndə saldım,
Söz selini
Açdım, sirab etsin elimi,
Çiçəkləsin ürəklər.
Narın-narın küləklər,

Sözlərimlə tozlasın
        çiçək-çiçək ürəkləri.
Fərəh içsin doyunca
Dodağı çat-çat arzular...

**07.05.07**

* * *

Dünya sənsiz kədərdi,
Yaşamağım hədərdi.
Həyat axır çay kimi, -
Hər şey gəldi-gedərdi.
Bu an, o ansız ölür
O an, bu ansız gəlir.

## BU PAYIZIN SÖZ YAĞIŞI

### I

İsti köynəyim yoxdu,
Dərdim, göynəyim çoxdu.
Payız məni üşüdür.
Payız məni eşidir?

Dağlar utanar deyə,
Duman gizlədir məni.
Yar gəlsə, üşümərəm,
Yar gəlincə, bürüyüb
Duman gözlədir məni.

Payızlasın dağ, çəmən,
Gülüm, sənin üzünün
Payızını görməyim, -
Hələ tezdi ölməyim.

Dağlarda külək əsir,
Şəhərdə kələk əsir.
Məni üşütməz külək,
Məni üşüdür kələk.

Ürəyim də kövrəlib,
Kağıza söz ağlayır.
Görən deyir; - bəxtəvər
Payıza söz bağlayır.

Bu payız toylarında,
Araq içir hər yetən, -
Olur uca dağla tən.
Şirin candan keçənlər,
Bülbül qanı içənlər,
Bülbül kimi oxuyur, -
Sözü ətir qoxuyur.
Meymun qanı içənlər,
Gah gülür, gah ağlayır.
Donuz qanı içənlər,
Donuz kimi ağnayır.

### II

Vaxtın ağzı
    payıza bulaşınca,
Söz yağdı, -
Kağız aşıb-daşınca.
Zaman qoydu cibinə.
Dedi;
- Dərdin dərmanı sözdü.

### III

Baharımsan. Ömrümə
Sən gəlmisən. Ürəyim
Çiçək-çiçək olubdur.
Payızmısan? Küsmüsən:
Payızından ürəyim,
Ləçək-ləçək olubdur.
Baharın nə gözəldi,
Payızından qorxuram.
Payızlama, darıxıram.

**30.09.08**

## ÖZÜ BİLSİN

Mən dedim sözümü,
Tökdüm ocaq-ocaq
Kağızlara közümü.
- Adamı sözündən tanıyarlar!

Deyib atalar.
Mən də sözümü deyib
Tanıdıram özümü.
İstəyən inansın,
İstəməyən özü bilsin -
özünü
yolumdan silsin.
Məni anlaya bilmirsə,
özünə gülsün!..

**12.07.09.**

## KƏBİNİM

Tanrı mənim
Kəbinimi sözlə kəsib.
Nə mən sözdən,
Nə söz məndən ayrı gəzib.
Bəzən olub,
Mən yatmışam, o yatmayıb.
- Yazıqdı! - deyib məni oyatmayıb.
Bəzən də görüb bağrı çatlayır,
Təklikdən havası çatmayır,
Qılığıma girib,
Qol-boyun olub.
Həyatı təzədən başlamışıq,
İkimiz bir ürəklə yaşamışıq.

**16.02.09.**

* * *

Min sərçə civildər, qarğa qırıldar,
Qartalın səsini batıra bilməz.
Sərçə qonsa qartal qonan zirvəyə,
O, qartal sözünü qaldıra bilməz.

Qaydadır həyatda qotur keçilər
Su içər həmişə bulaq gözündən:
Haradan içsə də keçi keçidi,
Nə olsun, öyünər, çıxar özündən.

**Dekabr 2009**

## ZAY ETMƏ

Ağlımı başımdan almısan, ay qız,
Hara aparırsan sən onu mənsiz?
Ondan baş açmarsan, qaytar geriyə,
Nəyinə gərəkdir ağıl bədənsiz?

O, mənim qanımla işləyə bilər,
O, sənin qanınla zəhərlənəcək.
Qaytar sahibinə götürdüyünü,
Qaytarsan, təzədən səhərlənəcək.

Aparma ağlımı nə olar, gözəl,
Məni hər yetənə gülüm, tay etmə.
Ver mənə özümü, ağlım qayıtsın
O, Allah payıdır, onu zay etmə.

**25.01.08.**

Qanlı ürəyimin eşqi, həvəsi:
Səni yaşatmaqdır, ay məhəbbətim.
İşim, söz azdıran şərə, şeytana
Hər gün daş atmaqdır, ay məhəbbətim.

Ürəyim Məkkədir, ziyarətinə
Hər gün milyonlarla söz, fikir gəlir.
- Eşqin zirvəsinə yetəcəm! - deyib
Sözün zirvəsinə ümid yüksəlir.

**25.01.09.**

* * *

Ağıl hikmət gəzir, məna axtarır,
Ürək məhəbbətə çəkir hey məni.
Dil ilə atılan nadan gülləsi, -
Sözün zəlzələsi sökür hey məni.

Nə yaxşı yaxşılar - var bu gözəllər,
Əridib təzədən tökür hey məni.
Qurudur nadanlar. Eşqim, həvəsim
Bu gündən sabaha əkir hey məni.

**3. 01.09.**

* * *

Söz, səni
hər yetən görmədiyi
yerdən götürdüm,
Kimsələr keçə bilməyən
yolla gətirdim.
İlhamımdan doğulmusan,

Canımdan, qanımdan
Yoğrulmusan, söz!

**iyun 2009**

* * *

Sabir,
Sənə daş atan nadan
Yolda mənə söz atdı:
Ürəyimi sızlatdı,
Hisslərimi buzlatdı.
Dedim: - Ürək, sən yansan,
Söz kimi işıqlansan,
Tarix görər köksündə
O, küldü, sən işıqsan.

**6. 06.09**

## İKİ KİTAB

Dayanmışıq üz-üzə:
Sənin üzün bir kitab,
Mənim üzüm bir kitab.
Gözüm gətirməyir tab,
Gözün gətirməyir tab.
Mən səni, - sən kitabı
Çevirdim varaq-varaq,
Oxudum sətir-sətir.
Sözlərdəki nöqtələr,
Aradakı vergüllər,
Boylandı çətir-çətir.

Açıldıqca mənalar
Yayılırdı ətrafa
Söz, fikir ətir-ətir.
Duyğular boy atırdı,
Ürəklər isinirdi,
Fikirlər diksinirdi,
Diksinib düşünürdü:
Ah, nə qalın kitabsan,
Ah, nə qalın kitabam.
Oxunub - tükənmirik.
O qədər mehribanıq,
Keçir milyon, min illər
hələ də təklənmirik.
Sən kitabın sonu yox,
Mən kitabın sonu yox,
Əbədiyik, əbədi.
Sözünü deyə bilməz
Yer rəqəmi, ədədi!

**9.06.09.**

## YANĞIN

Üfüqə yanğın düşüb.
Dilim-dilim
dil çıxardan alovlar,
İlan kimi yalvarır.
Kömək üçün əl uzatsan,
yandıracaq.

Xislətidi yandırmaq,
Yandırıb da, yan durmaq,
Baxıb, gülüb, zövq almaq.
Yağış dolu buludun
Göydə yanğın söndürən
Cəhdi sönür,
Yanğın sönmür.
Gündüzü xımır-xımır
Yeyən gecə gəlirdi...
Bu yanğını bu gecə
Söz söndürə bilərdi...

**18.07.09.**

## ADAMÖLDÜRƏN

Qaş-qabaqlı səhərmi;
Buludlanır gəlişi,
Şimşəkləyir gülüşü,
Hər yetəni öldürür
Adamöldürən.

Gözə süfrə sinəsi,
Dinmir, qonaq çağırır;
Baxmır yoldu, küçədi,
Baxmır gündüz, gecədi,
Baxmır halım necədi
Adamöldürən.

Yeriyir, hər addımı
Bir açılan gülllədi.
Yeridi, lalə-lalə
Ürəyim qan gülllədi.
Bir gözə dözmək olmur,
Bir cüt gözə kim dözər.
Çox da ki, qar deyiləm,
Mənə baxıb əridir,
Qanımı sussuz qalan
Yol daşına yeridir.
Yollara, çığırlara
Qan axır gilə-gilə...
Baxma düşmüşəm əldən,
Əskik olmasın eldən
Belə adamöldürən.

**10.12.08**

## YER GÜNƏŞİ

Keçmədində bu səhər
O qızı qəfil gördüm;
Od tutan ağac kimi
Yanıb, yerə töküldüm.
Zəlzələdən, ev kimi
Tanrı, lay-lay söküldüm.
Eh, mən, məni itirdim.
Burdayam, ya hardayam?
Dilim, azıb ağzımda,

Tapa bilmir sözümü.
Gözlərim elə bil ki,
Göydən asıb özünü.
Bu balaca Keçmədin
Yerdə Günəşmi doğdu?
Qamaşdırır gözümü.

İlahi, bu Günəşin
Göydəki Günəş kimi
Nə qədər lal duracaq?
Göy Günəşi bacarmaz,
Keçmədinin Günəşi
Şairi yandıracaq.

Rəhm elə, ay İlahi,
Endir bu kəndə ərşi,
Tez söndür bu Günəşi.
Dəyiş Yer ilə göyü.
Yerə gücün çatmasa,
Məni qaldır göyünə.
Qalsın bu qızla birgə
Yer deyinə-deyinə.

Nə qədər ki, dünyada
Bu qızladı Keçmədin,
Pozacam fərmanını.
Sonra demə; - dünyadan
Şair, niyə köçmədin?

Allah, ya o, ya da mən!
Nədir günahımız ki,
Nə ondan,
Nə də məndən keçmədin.
Bu od, alov içində
Qalacaqmı Keçmədin?

**Şamaxı, Keçmədin kəndi 2008**

## AY QIZ

Səni gördüm qəfildən,
Şimşəklədi ağılım.
Çaşıb qaldı. Bu yaşda
Allahıma ağ olum?
Qız, sən hələ başlanğıc,
Mən qoca - sona yaxın -
Sən keçirsən, yelindən
Az qalır ki, dağılım.
Mən sənə yetim deyə,
Bir də necə doğulum?

Cəm olmuşdu fikirim
Bilyard daşları kimi,
Sən də vurub dağıtdın -
Nə idi ki, günahım,
Ürəyimi ağrıtdın?

**23.12.08**

# QIZ, NƏ OLAR, PAXIL OLMA

Gözlərini göstər mənə,
Qız, nə olar, paxıl olma.
Gözlərinlə könül doymur,
Yanağını göstər mənə,
Qız, nə olar, paxıl olma.
Qara xalı göstər mənə,
Qız, nə olar, paxıl olma.
Bal bulağı -
Dodağını göstər mənə,
Çay dilim, bal axıtsın,
Qız, nə olar, paxıl olma.
Ulduzlara güzgü olan,
Ağ sinəni göstər mənə.
Çıx özündən çiçək kimi
Yox, doymuram, gül, doymuram,
Sən  özünü, göstər mənə.
Qız, nə olar, paxıl olma.

**Şirvan 26.11.08**

# NURLU SƏHƏR

Ay mənim ömrümün
                nurlu səhəri,
Gəzdim vüsalınla bütün şəhəri.
Qaranlıq küçədə,
                dar dalanlarda,

İşıq gurladı
Gecə heyrətindən ayaq üstəcə,
Qorxub, qurudu.
Quşlar həvəsləndi,
                daş nəfəsləndi.
Küçələr elə bil
                işıq nurudu,
Uzanır, tellənir
                Bakı boyunca.
Hopur adamlara bu işıq, bu nur,
Açır qapısını yuxu bişirən,
Qara gözlərin.
Qonur dodaqlara bal kimi sözlər,
Dodaqdan dodağa uçur, qaçır söz.
Ət tökür, hardasa ürək açır söz.
Qonaqlar heyrətlə
                baxır doyunca.
Xəzərdə dalğalar
                su deyil, nurdu.
Allahım, bu nurun
                necə də gurdu,
Daşır, qucaqlaşır,
                bu nur dalğalar,
Naz ilə gah gəlir,
                gah uzaqlaşır.
Çimir, gözəlləşir
                bu nurda qızlar,
Qızlar bir-birindən elə gözəldi,
Özümə bir gözəl seçə bilmirəm,

Nə ondan, nə bundan keçə bilmirəm.
Odur ki, subaylıq meydan sulayır,
Vaxt keçir, gözəllər
            məni saymayır.
Ay mənim gözümün
                  nurlu səhəri,
Sən məndən küsdürmə
                  bu gözəlləri,
Küsərəm səndən.

**12.02.10.**

* * *

Gözlərin qəlbimdə işıq yandırıb.
Bütün varlığımı işıqlandırıb.
Gecəm də nurludu gündüzlər kimi,
Gözlərin ömrümü uşaqlandırıb.

Təzədən görürəm gördüklərimi,
Heyrətim bürüyür gəldiklərimi.
Gör necə bərq vurur yollar, cığırlar,
Tanıya bilmirəm vərdişlərimi.

Qəndə, şokolada - qaqqa - deyirəm,
Məni aldadırlar, əmzik yeyirəm.
Oyuncaq axtarır əlim, gözlərim,
Qaçmaq istəyirəm, yerə dəyirəm.

Böyüt işığında, ay gözəl məni,
Kamala yetirsin o gözlər məni.
Nə qədər xoş keçsə sənli anlarım,
Sənin qaytardığın yol gözlər məni.

**11.02.10.**

## AY İLK BAHARIM

Hardan haray gəlsə,
fəryad eşitsən,
Mənim səsimdi.
Heç nə istəmirəm,
ummuram səndən,
Təkcə təbəssümün
mənim bəsimdi.
Onu da qıymadın,
qurutdun məni.
De, hara getdin ki,
ay ilk baharım,
Unutdun məni?!

**16.01.10.**

## VƏTƏNDİ DÜNYA

Anadı dünya, -
Bətindi dünya!
Bəşər oğluna
Vətəndi dünya.

Qarğıma qışın,
Öymə baharın.
Böyük eşqi var
Canda bunların.
Biri olmasa,
O biri yoxdur.
Payız olmasa,
Yay, bahar, qış da
İnanma toxdur.
Qışın dərdləri
Bahara qışdan
Atılan oxdur.
Bülbülü yazda
Payız oxudur.
Sünbülün, otun
Kökü qarlı qış.
Bahardı deyin; -
Payıza alqış!
Baxanda deyin:
- Baharda dünya.
Torpaqdan göyə
Buxardı dünya.
Gözü olsaydı,
Göyə həsədlə
Baxardı dünya.

**31.01.10**

## SÖZLÜ KÜLƏKLƏR ƏSİR

Uşaqlıq illərimi
Uşaq arabası kimi
itələyir,
Gələn günlərimi də
armud kimi yeyib,
Saplağından asıram,
Keçən günün yedəyinə.
Alın tərimlə yoğrulan
ayları, illəri
Səpirəm əsrin göbəyinə;
Cücərsin,
Əsrdən-əsrə güclənsin.
Solub
Təzədən cücərən çiçək kimi
Açılsın.
Yerdən gələn çiçəklərdə
Yerin dərdi yazılsın.
Yuxudan oyanan günlərim
gözlərimi ova-ova
Məni məndən soruşur.
Elə günlərim də olur ki,
Elə bil məni görmür,
yan sovuşur.

Günləri boş kisə kimi
dolduran bizik.
Buz kimi soyuq nəfəsimizlə,

Dağıtmaq həvəsimizlə,
Günləri donduran bizik.
Bəlkə də bu soyuq külək,
Bir vəhşi ingilisin
soyuqluğundan gəlir?
Amerikanın
şərqi dağıtmaq həvəsidir?
uşaqların naləsidir?
Göz yaşları qurumayıb,
Gözlər hələ nəmlidir.
Marsı, Yupiteri yox,
Küləklərin dilini öyrənmək
Daha önəmlidir.
Axı, hələ də
Tülkülər qulaq kəsir.
Kilidi açılmayan
Sözlü küləklər əsir.
Sağ əlimin içində
Gözəl, əlin gül kimi.
Barmaqların - beş ləçək,
Öpürəm ləçəkləri,
Gülür sinəmdə ürək.

Köz yetəni yandırmaz,
Yaranıb yanan üçün.
Söz hamını qandırmaz,
Yaşayır qanan üçün.

* * *

Avtobusda
Özünə yer tapmayan qız,
Bilmədən
Ayağımı tapdayan qız,
Niyə asta tapdadın?
Elə tapda
İçimdə boğulsun çığırtım.

* * *

Bir yol baxdın üzümə,
Ömrüm çat verdi, gülüm,
Bir də baxsan görərsən
İsgəndər öldü, gülüm.

* * *

Şöhrətim artdıqca düşmənim artır,
Hərə bir tərəfə yönəldir, dartır.

* * *

Mən yanan ürəyəm,
Yığışın istimə:
İsinin, deyin, gülün.
Harda sönsəm, üfürün,
Sizə od verər külüm.

Məni qoruyur ellər,
Məni söndürə bilməz,
Dənizlər, dəli sellər,
Sözün suyu söndürər!

Mən bir dəli sevdayam,
Fikrim, sözüm bilinməz.
Varam, görməz hər yetən
Kim görsə, təsdiqləyər:
Yerdə izim silinməz.

**17.02.10.**

## ALLAH BİLİR

Kainat - susuz dəniz,
Planetlər gəmilərdi,
                    üzürlər bu dənizdə.
Biz də sərnişinlərik
Yer adlı bir gəmidə.
Bu gəminin özü də,
hava dolu dənizdi.
Biz də qayıqlarıq
Yer adlı bu dənizin.
Arzularla
yüklənmşik:
Kimimiz
                    təzəcə çiçəkləmişik,
Kimimiz
                    ləçək tökümündəyik.
Sevirik, sevilirik,
haqlı, haqsız
                    söyülürük.
Bilsək də
                    Allahın hökmündəyik,

Kələkdən tələ qurur,
hərə öz evini uçurur.
Bəzən uşaq rənglərə,
Biz həqiqətdən don geyən
yalanlara cumuruq,
Yer gəmimiz əyilir,
Qayıqlar
suya töküləcək.
Sular nə vaxt
göyə çəkiləcək?
Allah bilir!

**14.02.10.**

## GÖZƏLLİK

Gözəllik,
Sən kimsən,
sən nəsən?
Dəli külək,
tufanmısan?
Sükut məni çalxadın,
Yol gedirdim,
saxladın,
Məni qatdın özünə.
İndi mən də
dəli külək, tufanam
Söz dənizində.
Gəzir xəzrim, gilavaram
Yer üzündə.

Alqış sənə, -
Belə ömür
verdin mənə!

**15.02.10.**

## BU GÜN

Fikrimin kölgəsində
dar ağacı qurulub,
Məni gözləyir.
Elə ki ləngiyirəm,
dümsükləyir, dizləyir.
həyata laqeydliyi
onu ölümdən qoruyub.
Göy üzü dəniz kimi durulub.
Qar yağır lopa-lopa...
Adamlar topa-topa
Birini itirə-itirə,
Birini tapa-tapa,
Qartopu oynayırlar
Soyuq deyil eyinə:
hamı ağ-appaq qardan
Paltar geyib əyinə.
Tamam yadımdan çıxıb
Dar ağacı, ölüm də...
Ayağım altındakı
boz kötük dingildəyir.
Ömrüm məndən xəbərsiz
Qorxudan, soyuqdanmı,

İt kimi zingildəyir.
Ömrün son nöqtəsi bağlanan,
Qəzəbindən nəfəsi
Soyuq havada buğlanan
Boz, ilməli kəndirin
bir ucu əlimdədi.
Gözlərim
Yağan qar dənəsində:
Bucağların, fiqurların
heyrətindəndi:
Kimdi düzən
bu sənət incisini,
Yerin birincisini?
Ölüm mat qalıb:
fikri dolaşıb,
Başı qarışıb
heyrətimə,
Məni unudub:
Bu həyat şahmatında
Ölüm uduzub.
Ömrüm udub.
Qar yağır:
hava mülayim,
fikrimin göyü
göy üzündən ayrılır,
Dar ağacı dağılır,
Bu gün
Bir İskəndər doğulur.

**25.02.10.**

## GÖZLƏRİNİN GECƏSİNDƏ

Deyirlər:
gecə ilə gündüzü
Bir yerdə görən olmayıb.
Belə sözü deyənlər,
Səninlə Yerdə qalmayıb,
Gözlərinin seyrinə
Ömrü boyu dalmayıb.
Gözlərinin qarası gecə,
Ağı gündüz deyildmi?
Gözlərinin gecəsində
                işıq yanır,
Ürəyim işıqlanır,
Dilim uşağlanır:
- Sevirəm! sözü
Ağzımın divarlarına dəyib
Şüşə kimi çiliklədi,
hecalandı,
Elə bildim
                dünya silkələndi.
Hecalar civildəşə-civildəşə,
Qaya-qaya dişlərimin
                arasında gizləndi.
Ağlım başıma gəlincə
                gözləndi.
Heca var, hecaya yetdi,
heca var.
Bilmirəm hara getdi.

hecaları bir düzümə
Yığıb-yığışdırınca,
Söz halına salınca,
ölüb-dirildim.
Ömrümün budağından
Yetişmədən dərildim.
Mən demirəm, de özün,
Gözlərinin gecəsində
Şimşəkləyib od saçan
İşığa necə dözüm?

**28.02.10.**

## BALACA BÖYÜKLƏR

Mənə həyat verir söz xəzinəsi,
Küsdürür ruhumu zər xəzinəsi.

* * *

Mənim söz günəşim, söz işığım var,
Çoxlu şeir adlı söz uşağım var.

* * *

Buludlanan saçların
Gözündə şimşəkləyib
Üstümə yağacaqmı?
Yoxsa, hələ başına
Aşiqlər yığacaqmı?

* * *

Ömrümüz pilləkəndi:
Pillə-pillə çıxırıq,
Ömrü-günü
pillələrə çıxırıq.
Bu pilləkəndə
Kimi qarın,
Kimi fikir,
Kimi yalan,
Kimi Allah yüklüdü.
Kimi,..

* * *

Ürəyim əlimdən tutub.
Əlim qələmdən tutub
                şeir yazır.
Sözlərin tıxacında
                söz olur ki, yol azır.
Fikrim ürəyimi,
Ürəyim fikrimi tələsdirir,
Azan sözü tapınca.

## BU GECƏ

Bu gecə səhərə kimi
Daraq çəkdim şeirimə,
Şeirim hamarlanmadı,
Fikrim damarlanmadı.

Gecənin qarasında
İtkin düşdü bir sözüm.
Sözümü axtarırdım,
Az qaldı itim özüm.
Gecənin qarasına,
Fikir çəkdim, yanmadı.
Söz üçün yandı ömrüm,
Söz mənə inanmadı.
Həyatımın yolunda
Günlərim şəhid oldu.
Düzlüyümə gecələr,
Gündüzlər şahid oldu.

Oturmuşam, damlanıb
Gecə başımın üstə.
Gözləyirdi dan yeri,
Elçi daşının üstə.

**11.04.2009**

## NƏ GÖZƏLDİ

Zülməti zəhərləmək,
Gecəni səhərləmək,
Gözlərimi səninlə
Kəndləmək, şəhərləmək
Nə gözəldi...

Ömrü yollara tökmək,
Sənin önündə çökmək;

Dərdi səninlə çəkmək
Nə gözəldi...

Səninlə bir ocaqda, -
Bir balaca bucaqda,
Lap cəhənnəm qucaqda
Yaşamaq nə gözəldi...

Sevgi çağlar ürəyə
Bir cüt qoşa bulağın.
Kaş İlahi kar etsin
Əzrailin qulağın,
Ata-anası olaq
Biz də beş-on uşağın.
Beləcə ömür sürmək,
Qız, yanında çürümək
Nə gözəldi...

**08.05.2009**

## BU QIZIN

Sözü asılı qalıb
Bu qızın dodağında
Axıb gəlmir üstümə
Səsinin bulağında.
Gözü elə yanır ki,
Bir kitab sözün biri
Oxunmur çırağında.

Bir - sevirəm - sözünün
Qalmışam sorağında.

Nə danışdım, nə dindim,
Arzumu qoydum dəmə.
Ölüb-dirildim, bildim,
Bu qız lal imiş demə.
Söz düşmədi dilinə,
Açılmadı sevgisi.
Açılmışdı gözündə
Ürəyinin sərgisi.

**11.05.2009**

## BALACA BÖYÜKLƏR

Bu tikanlı şeiri
Lap təzəcə yazmışam;
Bu da bir növ qəbirdi,
Mən özümə qazmışam.

* * *

Sən necə də namərdsən, -
Yağmaq üçün
Bulud olan dərdsən.

* * *

Mənim əllərimdə nə ixtiyar var,
Sənin əllərinə toxuna bilsin.

Talesiz insanam, mənim əlimə
Yazan nə yazıb ki, oxuna bilsin?

* * *

Sözlər axmır,
Ürəyimdən süzülür.
Hər şeir yazılınca
Ürəyim üzülür.
Yerişim ağırlaşır,
Səsim də fağırlaşır.

* * *

Sünbülü biçilmiş
Zəmiyə bənzəyirəm.
Yükünü boşaldıb
Dənizdə ləngər vuran
Gəmiyə bənzəyirəm.

## MÖVZULAR DÖYÜŞÜNDƏ

Bu yaşımda,
O qədər mövzular var başımda
Çadarlı torpaq kimi
Söz yağışı gözləyir
Dəftər, qələm qarşımda.
Mövzular haray çəkir.
Qohum, qonşu mövzular

İtələyir bir-birini
Kiminin çiyinlərində
Gözəllərin tərifi,
Kimi-gətirdim! Deyir.
Sən dindir, parıldasın,
Unudulan paslılar.

Başında tufan qopub
Uğultusundan
Qulaqlarım tutulur.
İsmətini qoruyan
Özünü bir canavar
Yağıdan oğurlayan
Qız qayadan atılır.
Gözü çıxır kəlləsinə yağının,
Yağı olsa da
Hiss edir acısını ağrının.
Sönür
Səhəri görmüş ulduzlar kimi
Hüceyrələri ağlının.
Bu qız ölümü boyda yox,
Ölümündən milyon dəfə çox,
Böyüdür Azərbaycanı.

Qobustan qayalarında
Qayadan ayrılıb bir oyunçu
Deyir: - Qulaq as şair,
Burda bəbir ovlamışam,
Süfrəsi şaxtalı pusqularda

Səbrimi tovlamışam.
Qayada gördüklərin
Yüzüncü mərtəbədir.
Qaz, yerin altındadır
İlkinimiz,
Tikilimiz,
Daş içi qəbirlərimiz.
Tariximizi üzdən öyrənməyin.
Elə yaşayın,
Dönüb geri baxanda
Özünüzdən iyrənməyin!

Beləcə;
Mövzular vuruşunda,
Arzular yarışında
Bir gecəlik ölümü unutdum,
Özümü səhərin qoynuna atdım.
Özümü yollara tökülüb işə tələsən
İnsanlara qatdım.
Avtobusda
Ayaq üstə mürgüləyə-mürgüləyə
Gah oyandım, gah da yatdım.
Nə yaxşı ki, iş yerinə
Oyaq çatdım...
Yaza bilmədiklərim
İçimdə ağlayırdı.
Bezən, üzülən
Beynimin hüceyrələri -
Qapısı,

Gələn fikirlərə bağlayırdı.
Bir az dincəlim...
Axı, bu günün sabahı var.

Gecə keçir; yuxu
Yatağa çəkir,
Kağız, qələm yazmağa-
Mövzularda azmağa.

**06.07.09**

## SÖZLƏ GÖRÜŞ

### I

Dizlərim əsə-əsə,
Dilim dolaşa-dolaşa,
Düşündüm ki, ay Allah
Xaqanili, Nizamili ölkədə,
Şair oldum bəlkə də.

Ürəyimi közlədim,
Fikrimi sözlədim,
Qələm sözdən alışmadı,
Hər nə qədər gözlədim,
Kağız sözə bulaşmadı.
Baxdım.
    İlham buludu dolmayıb,
Söz şimşəyi caxmayıb,
Günəş
Sözü göydə saxlayıb.

Şirvan adlı bölgədə
Yorulub söz yolunda,
Oturdum, nəfəs dərim
Sözdən düşən kölgədə.

**II**
Söz,
Sənə verdim nəyim var;
Canımı, qanımı içirtdim.
Qızlar cehiz köcürən tək
Ürəyimin odunu,
Gözlərimin nurunu
Sənə köcürtdüm.
İşıqdan doymayan
Qara keçə kimi nurlanmadın,
Elə - Ver! Ver! - dedin.

Söz, sən əjdaha,
Mən darıyam.
Sən dağları yedin!...
Əsrlərdi, min illərdi
Acsan, ac.
Dünən
qapını açmadın üzümə.
Yalvarıram sevgilim,
Bu gün aç.
Mənə də qismət olsun
Vüsal.
Gör neçə illər keçib

Hələ də qapını döyürəm.
Nə yaxşı ki, ümidim tükənmir;
Oturub elçi daşında
Ümid yeyirəm,
Arzularımı ümidləyirəm.

**III**
Sözün qanadımı qırılıb?
Ürəyimi yorulub?
Neçə gündü bizə gəlmir.
Nə gecəyə,
Nə də gündüzə gəlmir.
Elə bil bahar gəlib
Az qalır daşlar danışa,
Gül, çiçək düzə gəlmir.
Dağların arxasından,
Payızın səsi gəlir...

**IV**
Neçə-neçə gecə dolu,
Gündüz dolu yalvarışımla
Sözü yola gətirdim;
Öpdüm yanaqlarından,
Ehtirasın gücündən
Dişlədim dodağından.
Söz güldü, güldü,
Bu, sevgidəndi bildi.
Sarıldı mənə.
Səhərə yaxın yuxuya getdik.

Şükür ki,
Bir gecəlik vüsala yetdik.
Şükür, İlahi,
Şükür!
Gözümdən yuxu tökülür,
Söz yenə də üfüqə çəkilir.

**V**

Söz zirvədi,
Dönüb baxanda
Yıxıldım ucalığından.
Dedi;
Hələ də gözəl görəndə
Çağlayırsan.
Utanmırsan qocalığından?
Dedim;
Gözəlliyi sevən insanlığımdı,
Gözəllik öləndə,
Ölür insan.
Gözəllik yaşayırsa,
Yaşamalıyam
Mən onu.
Gözlərimin sevincində,
Ürəyimdə daşımalıyam.
Mən onu sevdim ki,
Ölməsin.
Arxamdakı nəsillər
Həyatı boz görməsin.

**24.06.09**

# ŞAİR KAĞIZSIZ, QƏLƏMSİZ OLANDA

Oturmuşam səkidə,
Nə kağızım var, nə qələmim.
Yerinə yetirə bilmirəm
Fikirlərin, sözlərin tələbin.
Beynim arı pətəyidir,
Fikirlər arı kimi qaynaşır.
O deyir: - mənəm birinci,
Bu deyir: - mənəm inci.
Yaz məni, tanıt məni.
Cilala, parlat məni.
Fikir də var, söz də var,
Küsüb gedir, inciyir.
Haradasa sönür hirsi,
Qayıdır, görür yenə
Basa-basdı beynimdə,
     hikkəsindən sözlər
Atır özünü beynimdəki uçurumdan.
Elə o an
- Gəl - deyirəm, o yoxdu.
- Şəhid balam! -
Şəhid sözüm, hardasan,
Niyə belə etdin?
Hansı çətində,
Hansı dardasan?
Səs elə, atılım dalınca,
Qalım yuxusuz, səni tapınca.

Səni misraların
Əsgər sırasına salınca.
Beləcə
Ana itirən körpə kimi,
Körpə itirən ana kimi
Özümü güclə çəkirəm.
Dağınıq fikirlərin, sözlərin
Çəkisindən çökürəm.
Bu kağız, bu qələm:
Cəmlə dağılan fikirləri,
Bəxtinə doğulan fikirləri,
Bacarsan!
İstəsən də baş tutmaz,
Azarsan.

## GECƏ OYUNU

Bu gecə yarğanında
Sağım, solum
                qaranlıq sıldırımdı.
Gecə
Yuxu püskürür gözümə:
Məni azdıra-azdıra,
Qəbrimi qazdıra-qazdıra,
Məni atır,
Məndən aralı baş qatır.
Sözümə baxmır sözlər.
Sözün
Elə qayasına tuş oluram,

Elə qıyyasına tuş oluram,
Bağrım yarılır.
Gecə gözümü örtür,
Sözləri gizlədir.
Bilmirəm mənə,
Yoxsa
Sözlərə yazığı gəlir,
Qələmim də
Xəsis buludlar kimi susur.
Mən sözləri,
Sözlər məni pusur,
Oyanım, gələlər.
Elə dünənki kimi
Mənimlə deyib-gülələr...
Saat dördə işləyir:
hiss edirəm ki,
                ağcaqanad məni dişləyir.
Demə ki, sözdən ayrılıb
oyanmışam.
Söz gecələr azar deyə
Keşiyində dayanmışam.

**13.08.08.**

## QƏLƏM VƏ MƏN

Dostum, sirdaşım, qardaşım,
Bacım, şirinim, acım.
Qələm!
Kimdi səndən yaxınım?

Gecə-gündüz
Yolda, küçədə, iş yerimdə,
Meydan oxuyursan xəbislərə.
Məni xəbərdar edirsən,
Kim azıb,
Kim nə tapıb elimdə,
Hansı xeyir
                hansı şəri üstələyib,
Kimlər yalan ütüləyib
Keçirib qıl körpüdən elmdə.
Kimi sevdim:
Sən sədaqətdə,
                etibarda olmadı,
Axıracan mənimlə qalmadı,
Qələm.
Sənsən Yerim, göyüm,
Allahım, bəndəm,
Ailəm.
Var ol, qələm.
Gözlərimdi yoluna nur səpən,
Səninlə ömür sürən.
Eşit, bil, bilir aləm,
Mən də sənsiz yaşaya bilməyən
ələm.
Səninlə qaynayır həvəsim.
Kəsilmir nəfəsim.
İki dolmuş buluduq:
Şimşəklərik,
işıqlanır nəslimiz.

**13.07.09.**

# İLHAM DOLU BULUDAM

İlham dolu buludam,
yağacam:
Solan, saralan
Söz-söz çiçəklərə, güllərə
həyat verəcəm.
Qorxuram bəzi sözlər
Çıxa sıradan,
Tapa bilməyəm
                ha axtarsam sonradan.
Nə qədər sağam
Bütün sözləri
Ürəyimə yığıram.
Yağıram, yağıram
Sinəsi cadar-cadar,
Söz gülünə,
                çiçəyinə həsrət
Varağlara.
Verirəm
Söz tökümü, fərmanı verə bilən
İnsan-insan darağlara.
Ələklərə, xəlbirlərə:
Darayıb,
Ələyib, xəlbirləyib
Qoşsunlar yaxşımı, pisimi
Efir boyu xəbərlərə.
Nə gücənirəm,
Nə hıqqanıram,

İlhamım özü yığır,
Özü yağır
Aydan arı,
Sudan duru sözləri.

**13.07.09.**

## BALACA BÖYÜKLƏR

Varmı bir gözəlin gözündə o su,
Sellənə, selində selləyə məni,
Tutam kirpiyindən xilas olmağa,
Vura ayağımdan yelləyə məni.

**02.11.08**

***(Dostum Allahverdi Məmmədov üçün).***

Allahverdi,
Səni yurda Allah verdi,
Yaxşılıqlar itməsin.
Yaşa, uzun illər yaşa,
Xeyirxahlıq bitməsin.

* * *

Gəl, gəl, gülüm, gəl, gözəlim
Gəl ki, səni gözləyirəm.
Yolunda yanmaq üçün
Ürəyimi közləyirəm.

* * *

- Yanımda qal, - deyirsən,
Qalaram, gülüm,
Özümü oduna
Qalaram, gülüm.

* * *

Oğul, sənə sözümü -
Közü tökdüm üstünə.
Adam oğlu, adam ol,
El yığılsın istinə.
Söyüd kimi yanma ki,
El kor ola tüstünə.

* * *

Qız, sevinirəm, həyatım:
Günəş əlinə düşüb,
İşıqlı gözlərinin
Axan selinə düşüb.

* * *

Söz nuru var nurumda.
Çağlayır qürurumda.
Sözlərim əsgər kimi
Döyüşür uğurumda.
Məhəbbət nəğməsi
Oxuyacaq qələmim.
Ömrümü naxış-naxış
Toxuyacaq qələmim.

**17.03.2010**

* * *

Məni hara çəkir
bu gözəl, Allah?
Tanıdır cənnəti,
cəhənnəmini:
Ölüb qurtarmışam,
bağla çənəmi.

**02.04.2010**

* * *

Oxşayıb canımızı sözdə,
bizi məst edəcəklər,
Sonra da sözdən asıb canımıza
qəsd edəcəklər.

**25.03.10**

* * *

Qaşların qayalardı,
Gözlərin qoşa bulaq:
Sənə - sevirəm! - Dedim:
Qaşlarının altında
Coşa bulaq.

* * *

Xaqani,
Səndən qopan qığılcımam:
Şad olaram,
Unudulmaz ad olaram,

Nəsillərə qalaram,
Alov törədə bilsəm.

* * *

Təzə gəlin kimi bəzənir Bakı,
Doğrudan cənnətə bənzəyir Bakı.

* * *

Söyüd kimi yanmıram,
Palıd kimi yanıram:
Bəşərə inanmışam.
Bəşər üçün yanmışam.
Yaşadar ellər məni,
Gələcək illər məni.
Ötürər bir-birinə
Dalğalı yellər məni.

## SƏNİN DODAQLARINDAN

Biz görüşdük,
Nəfəsindən çırtdadı,
Yanaqların laləsi.
İki gözün nur seli,
Bir-birinə qarışıb
Aşdı-daşdı
Bu sellərə qoşuldu
Saçlarının şəlaləsi.

Sellər aparır məni,
Harayıma yetən yox,
Yolum üstə bitən yox.
Tutam budaqlarından,
Dodaqlarım kam ala
Sənin dodaqlarından.

**22.09.09**

## DƏNİZLƏR

Mənim sənə olan
Sevgimə bənzəyir dəniz.
Necə də dum-durudur, necə də təmiz...
Səni, məni əks edir.
Bu dəniz haradan bilib
Eşqimizin ad günüdür.
Şad günüdür.
Dalğa-dalğa igidləri,
Ləpə-ləpə gözəlləri,
Bizə görə rəqs edir.
Elə bil ekrandı dəniz
Silir-süpürür ötənləri,
Təzəsini gətirir.
Zamanı piylənməyə,
Qıcqırıb iylənməyə qoymur.
Gör nə vaxtdır sahildəyik,
Dəniz bizi silməyir,-
Dəyişmir ekranında.
Dalğalar, ləpələr

qoruyur bizi-
Sənə, mənə çırpılıb ovulan
Vaxtın tozundan,
Adamların bozundan.
Bildin niyə qoruyur?
Axı biz də dənizik.
Ona görə əzizik
Xəzər üçün
Dənizlər sevir dənizləri-
Sənin kimi,
Mənim kimi təmizləri.

**19.11.09**

## İNSAF VER, ALLAH

Bu xanım necə də gözəldir, Allah,
O, məni illərdir gözlədir, Allah.
Azmışam, yolumu gizlədir, Allah,
Yazığam, bu qıza insaf ver, Allah.

Nə qızıl, mirvari, nə də incidir,
Gözəldir, könlümü yaman incidir.
Qızlar sırasında o, birincidir,
Yazığam, bu qıza insaf ver, Allah.

Ürəyim asılan boylu ağacdır,
Yerisə ürəyim qırılacaqdır.
Ürəksiz bədənim quruyacaqdır,
Yazığam, bu qıza insaf ver, Allah.

O mənə günəşdir sevdiyim gündən,
Tapşır, çevirməsin üzünü məndən.
Döyülən sünbültək olaram dən-dən,
Yazığam, bu qıza insaf ver, Allah.

**25.12.09**

## MƏHƏBBƏTƏM MƏN

Günəşin odunda,
Məhəbbətəm mən.
Öpüşün dadında,
Məhəbbətəm mən.
Çiçək yanaqlarda gəzir gözlərim,
Bəzən bir gözəli bir də görməyə,
Qışda saatlarla durub gözlədim.
Alçaq təpədə yox, zirvələrdəki,
Qartal qanadlarda
Məbbətəm mən.

O necə sevgidi, get-gəl olmasın?
Yolunda, izində əngəl olmasın?
Hər anda, saatda əcəl olmasın?
Sevdiyim gözəlin hər qohumunda,
Ən uzaq yadında məhəbbətəm mən.

**20.12.09**

## VAXT VAR HƏLƏ

İkimizlə yaşayan yollar,
Səni, məni daşıyan yollar,
Qalıb sənsiz, mənsiz çığıra-çığıra,
Nəfəsi təngiyib,
Səsi səngiyib.
Qocalıb,
Səni, məni çağıra-çağıra.
Yaşın ötüb,
Yaşım ötüb.
Gah quru,
Gah yaşıl ötüb.
Saçlarımı illər ütüb.
Bəlkə bir də,
O dünyada görüşdük.
Vaxt var hələ, bu gün də,
Açılan səhərə gərnəşdik...

**2009**

## MƏNDƏN SONRA SEVƏNLƏR

Mən səni itirəndə,
Saç yolurdu qızılgüllər.
Keçir o vaxtdan illər,
Mən səni axtarıram.
Soraq verir boz dillər.
Gedirəm, qayıdıram,

Çilik-çilik ümidlə.
Yol-yol, cığır-cığır,
ayaqlarıma dolanır
Bütün ölkə.
Nə sən görünürsən,
Nə də səndən çıxan,
İşıqdan qorxub qaçan
qara kölgə.
Deyirəm; -
Tapa bildim, bəlkə.
Gedirəm,
Yolları gözümdən,
keçirdə-keçirdə.
Dağda çağlayan yolu,
Gözümə içirdə-içirdə,
Yol boyu ağaclar,
Otlar, çiçəklər,
Qaratikan kolları,
Baxır mənə ürkək-ürkək.
Nə sən Leylisən,
Nə mən Məcnun.
Mən məlumam,
sən məchul.
Bəxtim belədir, neylim?
Mənə nə elədi,
Doğmalar elədi, neylim?
Yaş keçib,
Eşqə azalıb meylim,
Üzülməyir ümidim.
Gərək qalan ömrü də,

Yar yolunda əridim,
Dolsun yolun çala-çuxuru.
Mən çəkəni çəkməsin,
Məndən sonra sevənlər.
Bunu anlaya bilməz,
Ömrü, günə sərənlər.

**27.12.09**

## FİKİR BİTİB

Bu ayrılıq
Gələcək görüşlərə,
-Yox! deyən nidadı.
Səni sevə bilmərəm!
                Sözünə qidadır.
Eşitdinmi, dilin yox,
Ürəyimin səsini?
Bu ayrılıq
Suyun donma anında
Sükutuna bənzəyir.
Baharı görəcəkmi,
bir də donur açıla.
Qol boynuna asıla.
Bu ayrılıq.
Bitmiş cümlə,
Görüşə son nöqtədi,
Demə:
Gəl, abzasdan başlayaq,
Fikir bitib,

Həyatı
Sənsiz, mənsiz yaşayaq.

## GƏL-GƏL

Sənsiz dünya
    necə də ağırdır.
Dəqiqələr, saatlar
    ildən ağırdır.
Hava qurşun kimidi.
Elə bil Aydan,
Ulduzlardan qəm yağırdı.
Ürəyim maqnit kimi
Dərdi, qəmi yığırdı.
Elə bil bu
Məni sıxan, bu gen dünyada yox,
Canım çıxan rezin kisədəyəm.
Başına daş yağan,
Daşlı küçədəyəm
Sənsizliyin çəkisindən
Götürə bilmirəm
əllərimi, ayaqlarımı,
Çəkə bilmirəm ağrılarımı.
Gəl, gəl,
Həyat qoşa qanaddı.
Gəl-gəl, uça bilim,
Üfüqləri aça bilim.
Gəl, açılsın gözlərim,
Yoluna nur saça bilim.
Şeytan eşitməsin səsimi,

Gəl-gəl, gözləyirəm.
Daha dözə bilməyirəm.
Bir, iki, üç deyincə, gəl.
Əzrail əcəl şərbətini,
-İç! deyincə gəl.

**28.12.09**

Gözəlim, sevdiciyim
Günahlı, günahsızam,
Baxan elə bilir ki,
Hər gün, hər an ahsızam.
Hamı kimi mənim də
Bu pak, gözəl dünyaya
Doğulmağım günahdı.
Dərddən şişib bədənim,
Baxan deyir:- Bəxtəvər
Görün necə gümrahdı?

Məndən ötrü təzə il,
Qəm evi, qəm dəryası.
Görüşək, söhbətləşək,
Götür sinəmdən yası.

**15.12.09**

## YAŞAMAĞA DƏYƏR

Ömrün yetmiş iki düzündən keçib,
Dağlarından aşıram.
Dərəsində, meşəsində azıram,
Hər gün
Ömrümün lövhəsinə yazıram,
Silirəm səni.

Səni əlim yetməyən,
Ünüm çatmayan,
Yaşıl ada bilirəm.
Bu ada hər il,
Boynu bükük bənövşələrlə,
Bağrı yanıq lalələrlə,
Cücərdir ilk eşqimi.
Bu adanın düzləri,
Dağları eşq dağıdır,
Gecə-gündüz püskürür,
Vüsalımın yolunu,
Cığırını bağlayır.
Od püskürür-demirəm,
Od ağlayır.
Mənim cavanlıq eşqim!
Görən kimi ağlatdı,
Kimi sevindirdi o ?
Bu eşqimlə açılan sərgim-
Sən də
Mənə al olan sərgim!...
Ürəyin bu başından
O başına çığıran,
Gəl! Gəl - deyib çağıran
Səssiz həyatımı eşidirsənmi?
                    üşünürsənmi?
Beləsə, hələ sən də sevinirsən!
Məni ömür lövhənə
Hər gün yazıb-silirsən!
Yaşamağa dəyər deyə,
Yaşayıram, yaşayırsan.

**2009**

# GƏL

Təkliyin cəngindəyəm,
Sənsiz darıxıram, gəl.
Dəqiqələr, saatlar
Elə bil canavardı,
Ulayır, qorxuram, gəl.
Ölüm açıb ağzını,
Ayağa qalxıram, gəl,
Ay eşir varlığımı,
Məni əmir qəzəblə.
Ulduzlar iynə kimi
Sancılır bədənimə.
Dumağ qara zəhərdi,
Yağır şəkər ömrümə.
Qul əlim, qul ayağım,
Qulaq asmır əmrimə.
Göy yer ilə sözləşib,
Daraşıblar ömrümə.
Gecikmə, gəl, geciksən,
Ahlarımın dumanı
Yolunu bağlar, gülüm.
Mələksən, göylərdəsən ,
Sənə çatacaq sözü
Hilalın barmağına
Əyilib taxaram, gəl.

**19.12.09**

# MÜNDƏRİCAT


"Sözün sehri" kitabı haqqında qısa düşüncələrim . . . . . . 3
Sözün poetikası - poetikanın Sözü . . . . . . . . . . . . . . . . . 7
Bir söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 11
Söz də dünya kimidi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . 12
İki söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 13
Nadana cavab. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 19
Söz məkkəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 26
Gəl. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 27
Şair məhəbbəti. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 28
Sözün prezidentiyəm. . . . . . . . . . . . . . . . . . . . . . . . . 29
Xaqani və hökmdar . . . . . . . . . . . . . . . . . . . . . . . . . 30
Gecə saat bitdi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 31
Bir söz dedim . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 32
Söz var . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 33
Dünya bir az düzələr . . . . . . . . . . . . . . . . . . . . . . . . 34
Sözü sözlə yoğura, sirr aça, aslan ola könlüm . . . . . . . 35
Adsız şeirlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 35
Qırmızı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 37
Ləyaqət. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 38
İnam. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 39
Mühit . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 41
Hünər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 42
Günəş42
Ona . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 43
Müharibə. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 44
Aclıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 45
İşıq. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 46
Yaxşılıq. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 47
Paxıllıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 48
Fərəh . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 49
Xəyanət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 49
Səbr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 51
Söz. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 52
Həsrət. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 53
Füzuli narahatdır. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 54
Leyli və Məcnun . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 55
Söz içindəyəm . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 56

Zaman və söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . 57
Vaxtım hanı. . . . . . . . . . . . . . . . . . . . . . . . . . 58
Baxma ki. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 59
Öldürəndə bilmişəm . . . . . . . . . . . . . . . . . . . . 60
Ürək elə ağladı . . . . . . . . . . . . . . . . . . . . . . . 62
A şair . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 62
Yollarım yamyaşıldır. . . . . . . . . . . . . . . . . . . 63
Necə yazır. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 64
Söz toyu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 64
Əli Kərimlə söhbət. . . . . . . . . . . . . . . . . . . . . 65
Şairsən . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 67
Ömrüm . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 68
Söz gəlin. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 69
Kimdi məni eşidən . . . . . . . . . . . . . . . . . . . . . 71
Şəhərdi şeirim . . . . . . . . . . . . . . . . . . . . . . . . 73
Məni unutmaz . . . . . . . . . . . . . . . . . . . . . . . . 73
Söz var deyə . . . . . . . . . . . . . . . . . . . . . . . . . 74
Şeir yazıram . . . . . . . . . . . . . . . . . . . . . . . . . 75
Əriyib töküldüm kağıza söz-söz . . . . . . . . . . . 76
Şeir yazmaq istəyirəm. . . . . . . . . . . . . . . . . . 77
Nə var ki . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 78
Qələm. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 79
Söz yolu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 79
Sözün lüğət şəhəri . . . . . . . . . . . . . . . . . . . . . 80
Mayası ilham olsa. . . . . . . . . . . . . . . . . . . . . . 82
Yorğunluq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 83
Əllərimin kölgəsi . . . . . . . . . . . . . . . . . . . . . . 84
Əsrin sözlü ağacıyam . . . . . . . . . . . . . . . . . . . 85
Gəlir. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 86
Əngözəl şeirim. . . . . . . . . . . . . . . . . . . . . . . . 87
Söz oyunu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 88
Bağışla . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 89
Söz - Bisütun. . . . . . . . . . . . . . . . . . . . . . . . . 90
Söz pətəyinlə. . . . . . . . . . . . . . . . . . . . . . . . . 91
Pərişanam . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 92
Bir payızın söz yağışı . . . . . . . . . . . . . . . . . . . 92
Özü bilsin . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 95
Kəbinim . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 96
Zay etmə. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 97

Adsız şeirlər . . . . . . . . . . . . . . . . . . . . . . . . 98
İki kitab . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 99
Yanğın . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 100
Adamöldürən . . . . . . . . . . . . . . . . . . . . . . . 101
Yer günəşi . . . . . . . . . . . . . . . . . . . . . . . . 102
Ay qız. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 104
Qız, nə olar, paxıl olma. . . . . . . . . . . . . . . . 105
Nurlu səhər . . . . . . . . . . . . . . . . . . . . . . . . 105
Ay ilk baharım . . . . . . . . . . . . . . . . . . . . . . 108
Vətəndi dünya . . . . . . . . . . . . . . . . . . . . . . 108
Sözlü küləklər əsir . . . . . . . . . . . . . . . . . . . 110
Allah bilir . . . . . . . . . . . . . . . . . . . . . . . . . 113
Gözəllik . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 114
Bu gün . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 115
Gözlərinin gecəsində. . . . . . . . . . . . . . . . . . 117
Balaca böyüklər . . . . . . . . . . . . . . . . . . . . . 118
Bu gecə. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 119
Nə gözəldi. . . . . . . . . . . . . . . . . . . . . . . . . 120
Bu qızın . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 121
Balaca böyüklər . . . . . . . . . . . . . . . . . . . . . 122
Mövzular Döyüşəndə . . . . . . . . . . . . . . . . . 123
Sözlə görüş . . . . . . . . . . . . . . . . . . . . . . . . 126
Şair kağızsız, qələmsiz olanda . . . . . . . . . . . 130
Gecə oyunu . . . . . . . . . . . . . . . . . . . . . . . . 131
Qələm və mən . . . . . . . . . . . . . . . . . . . . . . 132
İlham dolu buludam . . . . . . . . . . . . . . . . . . 134
Balaca böyüklər . . . . . . . . . . . . . . . . . . . . . 135
Dostum Allahverdi Məmmədov üçün . . . . . . . . 135
Sənin dodaqlarından . . . . . . . . . . . . . . . . . . 138
Dənizlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 139
İnsaf ver,allah. . . . . . . . . . . . . . . . . . . . . . . 140
Məhəbbətəm mən. . . . . . . . . . . . . . . . . . . . 141
Vaxt var hələ. . . . . . . . . . . . . . . . . . . . . . . 142
Məndən sonra sevənlər . . . . . . . . . . . . . . . . 143
Fikir bitib . . . . . . . . . . . . . . . . . . . . . . . . . 144
Gəl-gəl . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 145
Yaşamağa dəyər . . . . . . . . . . . . . . . . . . . . . 147
Gəl . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 148

Redaktoru:
*Hikmət Məlikzadə*

Dizayner:
*Nüsrət Quliyev*

*Bu kitabın çapında xidməti olanlara öz minnətdarlığımı bildirirəm.*

*Bu kitabda İskəndər Etibarın sözü tərənnüm edən şeirləri cəmlənmişdir. Əsrlər boyu bütün klassiklərimiz sözün böyüklüyünü, əlyetməzliyini tərənnüm etmişlər. Müəllif də bu ənənəyə sadiq qalaraq sözün böyüklüyünə sığınmış və onun qarşısında baş əymişdir.*